

İordaniya agentliyi: "Prezident İlham Əliyevin sərkərdəlik məharəti Azərbaycan Ordusunun möhtəşəm Qələbəsini təmin edib"

3

# "Bu qələbədə veteranların da payı çox olub"

# Səs

№ 014 (6455) 26 yanvar 2022-ci il. Qiyməti 60 qəpik



2

**Prezident İlham Əliyev Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovaya "İstiqlal" ordenini təqdim edib**

# Ermənistanda vəziyyət gündən-günə pisləşir!

8






3

## "İşğaldan azad edilmiş ərazilərin bərpasına qədın sahibkarlarımız da öz töhfələrini verəcəklər"

# Mbappe qərarını nə vaxt açıqlayacaq?



PSJ-nin hücumçusu Kilian Mbappe klubuna və "Real"a gələcəyi ilə bağlı hansı qərarı verdiyini söyləməyib. Qol.az "Get French Football News"a istinadən...

16

Əhməd İsmayılov:

## "Azərbaycan jurnalistləri hər zaman fədakarlıqları ilə seçiliblər"

Yanvarın 24-də Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Medianın İnkişafı Agentliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə təşkil etdiyi "Müharibədən sonrakı...



7




**"İşğaldan azad olunmuş ərazilərə gedənlərin sayı durmadan artır"**

12

"Rəqəmsal inkişaf və nəqliyyat nazirliyi yanında dövlət avtomobil nəqliyyatı tərəfindən 24 yanvar tarixindən etibarən...



**Dmitri Solonnikov: "Koçaryanın və Sarkisyanın yenidən prezident olmaq şansı yoxdur"**

14

Xəbər verildiyi kimi, Ermənistan prezidenti Armen Sarkisyan Ermənistan prezidenti vəzifəsindən istefa...

# “Bu qələbədə veteranların da payı çox olub”

## Prezident İlham Əliyev Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovaya "İstiqlal" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İkinci Dünya müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə ”İstiqlal” ordenini təqdim edib.**

AZƏRTAC xəbər verir ki, Fatma Səttarova dövlətimizin başçısına minnətdarlığını bildirib: Azərbaycanımın, Azərbaycan Ordusunun qəhrəman oğlu, Ali Baş Komandan, 44 günün içində o boyda dağlıq yerləri, Qarabağı aldınız. Böyük qəhrəmanlıqdır. Azərbaycan xalqı Sizinlə fəxr edir, Allah qorusun. Siz camaata ruh verdiniz, Siz camaata inam verdiniz, Siz camaata ölkə qaytardınız, Siz Vətən qaytardınız, torpağımızı qaytardınız.





Prezident İlham Əliyev qeyd edib ki, bu, bizim hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Bu qələbədə veteranların da payı çox olub. Siz hamımız üçün nümunəsiniz. Siz İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmisiniz, böyük fədakarlıq göstərmisiniz. Ondan sonra da həmişə fəal olmusunuz. Sizi mən yüksək ordenlə təltif etmişəm. Bu, Azərbaycan dövlətinin ən ali ordenlərindən biridir, ”İstiqlal” ordenidir. Siz buna layiqsiniz. Çünki siz öz həyatınızla istiqlal ideallarımızı tərənnüm etmisiniz və müstəqillik dövründə sizin fəallığınız, sizin sözünüz, qətiyyətli addımlarınız, dövlətçiliklə bağlı gördüyünüz işlər bizim üçün çox əzizdir və nümunədir.

Sonra Prezident İlham Əliyev Fatma Səttarovaya ”İstiqlal” ordenini təqdim edib və ona möhkəm cansağlığı arzulayıb.

# “Müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq”

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini videoformatda qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, iranlı naziri salamlayan Prezident İlham Əliyev qeyd edib ki, vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır:***



-Hörmətli cənab nazir, hörmətli İran nümayəndə heyətinin üzvləri Azərbaycana xoş gəlmisiniz. Mən çox şadam ki, sizin Azərbaycana səfəriniz azad edilmiş torpaqlardan başladı. Siz dünən İrandan birbaşa Füzuliyə, Füzuli Beynəlxalq Hava Limanına təyyarə ilə gəlmisiniz, həm Füzulidə, həm Zəngilanda olmusunuz və biz bunu çox yüksək qiymətləndiririk.

Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır. Müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət almışdır. Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılmışdır. Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək. Eyni zamanda, əminəm ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqlar. İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verildi, İran tərəfi ilə ilkin danışıqlar aparıldı və indi konkret nəticələr gözləyirik.

Siz azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözlərinizlə görmüsünüz. Ermənistan işğal dövründə bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib. Ona görə bu böyük ərazidə - 10 min kvadratkilometrdən böyük olan ərazidə indi quruculuq işlərinə start verildi, amma gördüyünüz kimi, bu, çox genişmiqyaslı bir işdir. Yüzlərlə şəhər və kənd demək olar ki, yer üzündən silinib. Bərpa işlərinə start verildi və dediyim kimi, ümid edirəm ki, İran şirkətləri bu işlərdə fəal iştirak edəcəklər.

Siz dünən, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir və Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır. Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə ki, İran İslam Respublikasının bu işlərə töhfəsi də çox önəmlidir.

Digər məsələlərə gəldikdə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması, Xudafərin Su Elektrik stansiyalarının inşa edilməsi, Astaraçay üzərində körpünün inşa edilməsi - bütün bu və digər məsələlər dünən Şahin Mustafayevlə müzakirə olunub və hökumətlərarası komissiyanın işində, əlbəttə ki, prioritetlər sırasında olacaq. Onu da bildirməliyəm ki, noyabrın sonlarında İran İslam Respublikasının Prezidenti cənab Rəisi ilə keçirdiyim görüş çox uğurlu, əhəmiyyətli idi və İran-Azərbaycan əlaqələri üçün yeni imkanlar açır. Bu, əlaqələrimizin, dostluq, qardaşlıq əlaqələrimizin yeni səhifəsinin açılması deməkdir.

İranlı nazir Rüstəm Qasimi:

- Allahın adı ilə. Cənab Prezident, mən Sizi salamlayıram və Sizə, Azərbaycan xalqına cansağlığı, Azərbaycan dövlətinə uğurlar arzu edirəm. İran İslam Respublikasının Prezidenti cənab doktor Rəisinin səmimi salamlarını Sizə çatdırıram. İran dövləti və İran xalqı adından şəxsən Sizə, Azərbaycan dövlətinə, Azərbaycan xalqına ərazilərin geri qaytarılmasında əldə etdiyiniz uğurlar və bu müharibədə qazandığınız Qələbə münasibətilə təbrik çatdırıram. Qeyd etdiyiniz kimi, Sizinlə cənab Prezident Rəisi arasında keçirilən görüş iki ölkə münasibətlərində yeni bir səhifə yaradacaq.

Biz dünən azad edilmiş əraziləri gördük, orada aparılan quruculuq və yenidənqurma işləri ilə yerində tanış olduq. Ümid edirəm ki, bu gün cənab Şahin Mustafayevlə və eləcə də Azərbaycan Respublikasının digər nazirləri ilə keçirəcəyim görüşlərdə iki ölkə arasındakı əlaqələr və müştərək layihələr barədə bir daha fikir mübadiləsi aparacağıq.

Onüçüncü hökumət, yəni, cənab İbrahim Rəisinin prezidentliyi dövründə dövlətimiz bütün qonşu ölkələrlə, xüsusilə də mədəni, tarixi və ictimai bağları daha çox olan Azərbaycan Respublikası dövləti və xalqı ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Prezident İlham Əliyev İran dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi. Söhbət zamanı ikitərəfli əlaqələrə dair müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Azərbaycan və Ukrayna Prezidentləri arasında telefon danışığı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edib. Dövlətimizin başçısı Ukrayna Prezidentini ad günü münasibətilə təbrik edib, fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Təbrikə və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Volodimir Zelenski Prezident İlham Əliyevin bu yaxınlarda ölkəsinə səfərini məmnunluqla xatırladığını qeyd edib. Azərbaycan Prezidenti səfər çərçivəsində göstərilən qonaqpərvərliyə görə Ukraynanın dövlət başçısına təşəkkür edib. Telefon söhbəti zamanı gələcək ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparılıb.

# İordaniya agentliyi: “Prezident İlham Əliyevin sərkərdəlik məharəti Azərbaycan Ordusunun möhtəşəm Qələbəsini təmin edib”

2020-ci ilin payızında 44 günlük Qarabağ müharibəsində Prezident İlham Əliyevin sərkərdəlik məharəti Azərbaycan Ordusunun möhtəşəm Qələbəsini təmin edib. Məhz dövlət başçısının liderliyi sayəsində azərbaycanlılar 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış əraziləri azad ediblər. AZƏRTAC xəbər verir ki, bu sözlər jurnalist Motaz Muxi Əbdül Həmidin İordaniyanın ”Nayrouz” agentliyinin saytında dərc olunmuş məqaləsində yer alıb.




Bu günlərdə Azərbaycan xalqının 20 Yanvar faciəsi qurbanlarının xatirəsini andığını diqqətə çatdıran müəllif yazıb: ”Həmin hadisələr zamanı nümayişə çıxan insanlar həm ermənilərin Azərbaycan ərazilərini zəbt etmək cəhdlərinə, həm də soydaşlarının müasir Ermənistanda yerləşən dədə-baba torpaqlarından qovulmasına etiraz edirdilər. Qanlı Yanvar faciəsindən 30 il sonra - 2020-ci ilin sentyabr-noyabr aylarında qəhrəman Azərbaycan əsgərləri tarixi ədaləti bərpa etdilər. Artıq onların həyatlarını qurban verdikləri məqsədə nail olunub, işğaldan azad edilmiş torpaqlarda bütün şəhidlərin ruhuna dualar oxunur”.

Məqalədə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasından, hazırda Qoşulmama Hərəkatına sədrlik etməsindən, İslam dünyasının ayrılmaz hissəsi olmasından da bəhs edilir. Müəllif vurğulayır ki, rəsmi Bakı bütün ölkələrlə, o cümlədən İslam dövlətləri ilə mehriban qonşuluq əlaqələrini möhkəmləndirir. Azərbaycan, eyni zamanda, müasir dövlət quruculuğu, demokratiyanın inkişafı və vətəndaş azadlıqlarının, plüralizmin təmin edilməsi sahələrində böyük nailiyyətlər qazanıb. Özünün sülhsevər siyasətinə, başqa dövlətlərin ərazi bütövlüyünə hörmət, regional sabitlik və inkişaf prinsiplərinə sadiq qalan Azərbaycan, həmçinin ərəb ölkələrində də etibarlı tərəfdaş və dost imicinə malikdir.

# “İşğaldan azad edilmiş ərazilərin bərpasına qadın sahibkarlarımız da öz töhfələrini verəcəklər”

“2020-ci il Azərbaycan dövlətinin və xalqının çoxəsrlik tarixinə əlamətdar il kimi daxil oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etdi. Bu hadisə Azərbaycanın çoxəsrlik tarixinə qəhrəmanlıq salnaməsi kimi daxil oldu. Şanlı Qələbəmiz təkcə tarixi ədalətin bərpası və Azərbaycanın haqlı mübarizəsinin kulminasiya nöqtəsi deyil. Qələbə nəticəsində regionda yeni reallıqlar yarandı və Azərbaycanın onsuz da böyük olan rolunun bundan sonra daha da artması üçün yeni imkanlar formalaşdı”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.



Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanın iqtisadi rayonlarının bölgüsünə yenidən baxıldı və işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Bu rayonlar böyük iqtisadi potensiala malikdir. Təbii ki, həmin iqtisadi rayonların imkanlarından səmərəli istifadə və onların potensialının ölkə iqtisadiyyatına inteqrasiyası Azərbaycanın bundan sonrakı dövrdə daha sürətli inkişafını təmin edəcək. İndi həmin ərazilərdə bərpa prosesi ən müasir tələblərə cavab verən səviyyədə müasir texnologiyaların tətbiqi ilə həyata keçirilməkdədir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qısa müddət ərzində nəhəng infrastruktur layihələri artıq reallaşdırılıb və hal-hazırda da bu istiqamətdə işlər davam edir.

YAP Sədrinin müavini qeyd edib ki, bu gün dövlətimizin əsas məqsədlərindən biri işğaldan azad olunmuş ərazilərə həyatın qaytarılması, Böyük Qayıdışın təmin edilməsidir: ”Həmin ərazilər minalardan təmizləndikcə məskunlaşma prosesi həyata keçiriləcək. Təbiidir ki, insanlarımız doğma torpaqlarına qayıtdıqca ən aktual, ən vacib məsələlərdən biri də onların iqtisadi fəallığının, məşğulluğunun təmin edilməsidir. Bu proses ölkəmizin daha sürətli inkişafı üçün möhkəm zəmin yaratmış olacaq. Bilirsiniz ki, həmin iqtisadi rayonların iqtisadiyyatına, o cümlədən sosial infrastruktur layihələrinə böyük investisiyalar yatırılır. Dövlət büdcəsinin önəmli bir hissəsi bu ərazilərdə quruculuq işlərinin yerinə yetirilməsinə sərf olunur. Eyni zamanda, bu prosesdə xarici ölkələrin də şirkətləri iştirak edirlər. Xüsusilə, qardaş Türkiyənin şirkətləri həmin ərazilərdə fəal çalışır. Bununla belə bu prosesə yerli sahibkarlarımızın da aktiv qoşulması çox önəmli bir məsələdir və ”Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu” mövzusunda keçirdiyimiz konfransın da əsas mahiyyəti odur ki, işğaldan azad edilmiş ərazilərin quruculuğunda, həmin ərazilərin sosial-iqtisadi inkişafında qadın sahibkarların iştirakını təşviq edək. Düşünürəm ki, bu konfransda dövlət orqanlarının nümayəndələri tərəfindən verilən məlumatlar, aparılan müzakirələr nəticəsində qadın sahibkarlarımızda azad edilmiş ərazilərdə mövcud vəziyyətlə bağlı aydın təsəvvür formalaşacaq və onlar həmin ərazilərin bərpası prosesində yaxından iştirak edərək quruculuq işlərinə öz töhfələrini verəcəklər”. yap.org.az

# Misirli professor: “2022-ci ilin “Şuşa İli” elan edilməsi İslam dünyası üçün də əlamətdardır”

Ötən il iyunun 22-də Prezident İlham Əliyevin imzaladığı ”Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Qanundan sonra dövlətimizin başçısının Sərəncamı ilə 2022-ci ilin ”Şuşa İli” elan edilməsi, ilk növbədə, qədim mədəni irsin bərpası və qorunmasına olan diqqətin təzahürləridir. Bu addımlar, bütün İslam dünyası üçün də əlamətdardır. Ermənistanın işğalından azad olunmuş bu qədim şəhər Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, həm də İslam irsi ilə zəngin olan açıq muzeydir.

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində misirli professor, 2006-cı ilədək Misirin Azərbaycandakı səfirliyinin mədəniyyət attaşesi vəzifəsində çalışmış Bağdadi İmam söyləyib. O vurğulayıb: ”Bakıda olduğum zaman Şuşanın tarixi ilə yaxından maraqlanırdım. Öyrəndim ki, 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən təməli qoyulmuş Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olub və bir müddət Pənahəli xanın şərəfinə Pənahabad, sonradan isə Şuşa qalası və Şuşa adlandırılıb. Buradakı Seyidli, Çuxur, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllələrindən Azərbaycan xalqının dünyaya bəxş etdiyi ictimai və dövlət



xadimləri, eləcə də ədəbi simalar çox olub. Şuşa yalnız əsrarəngiz təbiəti ilə deyil, məşhurların yetişdiyi məhəllələri ilə də tanınıb. İslam abidələri və tarixi binaları ilə mədəniyyət paytaxtına çevrilən bu qədim şəhər ”Kiçik Paris”, Qafqazın incəsənət məbədi və Azərbaycanın musiqi mərkəzi də adlanıb”.

B.İmam qeyd edib ki, Ermənistan tərəfindən 1992-ci il mayın 8-də işğal olunan Şuşada qədim abidələrin dağıdılması bütün müsəlman mədəniyyətinə qarşı törədilən bir barbarlıq aktlarıdır. O deyib: ”İşğalçıların talan etdiyi və dağıtdığı abidələr sırasında Pənahəli xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, Molla Pənah Vaqifin məqbərəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Gövhər Ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və sair tarixi mədəniyyət nümunələri var. Ümumilikdə 600-ə yaxın tarixi abidəni dağıdan və talan edən ermənilər burada Azərbaycan və müsəlman irsinin izlərini silməyə çalışıblar. Şuşa Tarix Muzeyinin, Azərbaycan Xalça Muzeyinin Şuşadakı filialının, Qafqazda yeganə şərq musiqi alətləri zavodunun məhvi, muzeylərdəki eksponatların talan edilməsi kimi əməlləri yalnız İslam və bəşər mədəni irsinə nifrət edən bir barbar dəstəsi törədə bilərdi. Lakin onlar öz məqsədlərinə nail ola bilmədilər. Azadlığına qovuşan Şuşa sürətlə bərpa edilir, yenidən Azərbaycanın və bütün Qafqazın mədəniyyət mərkəzinə çevrilir”.

Misirli professor sonda xüsusi olaraq qeyd edib ki, cari ilin ”Şuşa İli” elan olunması bu qədim şəhəri azad edərkən qəhrəmanlıq dastanı yazmış Azərbaycan əsgərlərinin möhtəşəm Qələbəsinin mənəvi davamı, şəhidlərin ruhuna dərin ehtiram olacaq quruculuq işlərinin sürətləndirilməsi baxımından da əlamətdar hadisədir.



# “Astaraçay üzərində yeni körpünün ilin sonuna qədər inşa edilməsi planlaşdırılır”

Pandemiya şəraitinə baxmayaraq Azərbaycan-İran ticarət əlaqələri ötən ilin 11 ayında 30 faizədək artıb. Bu barədə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev jurnalistlərə açıqlamasında deyib.

Baş nazirin müavini bildirib ki, yük avtomobillərinin sayı ötən ilin 11 ayında əvvəlki illə müqayisədə 62,5 faiz artıb. Bu, ”Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin verdiyi töhfədir.

”Bu dəhliz çox böyük önəm daşıyır və çox yaxşı fəaliyyət göstərir. Ölkələr bu istiqamətdə mühüm işlər görürlər. İran tərəfi Həştərxan hissəsinin tikintisini sürətləndirməlidir. Azərbaycan tərəfi Astaradakı yük terminalının tikintisini başa çatdırıb. Bu gün biz Astaraçay üzərində yeni avtomobil körpüsünün təməlini qoyacağıq və körpünün bu ilin sonuna qədər inşa olunması planlaşdırılır”, - deyə Şahin Mustafayev əlavə edib.

# "İşğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir"

**Yanvarın 25-də YAP Mərkəzi Aparatında Yeni Azərbaycan Partiyasının və Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin birgə təşkilatçılığı ilə "Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu" mövzusunda konfrans keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları YAP Mərkəzi Aparatının foyesində təşkil olunmuş sahibkar qadınların əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə - bunlar tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Onun sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı: "Azərbaycan xalqı hazırda tarixi ədalətin bərqərar olduğu, xalqımızın qürur mənbəyinin gücləndiyi, millətin və dövlətin bir yumruq kimi birləşdiyi şəraitdə, qələbəmizin siyasi cəhətdən möhkəmləndiyi və işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin vüsət aldığı şərəfli bir dövrdə yaşayır. Belə bir dövrdə Azərbaycanımızın qüdrətini və gücünü daha da artırmaq, milli sərvətlərindən səmərəli istifadə etmək, yeni reallıqlar şəraitində məhsuldar iqtisadi inkişaf və tərəqqi modeli formalaşdırmaq və inkişaf etdirmək vacib şərtlərdəndir. Artıq işğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə institutunun yaradılması ilə bağlı mühüm addımlar atılıb. Yeni dövrün reallıqlarına uyğun inkişaf strategiyası müəyyənləşib. Artan iqtisadi gücümüz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı vermişdir. Dövlətimizin başçısı İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi də yeni strateji dövrdə qarşımızda dayanan məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədini daşıyır. Müdrik siyasət nəticəsində Azərbaycanın regionda iqtisadi rolu yüksəlmiş, xarici təsirlərə davamlı və müstəqil dövlət kimi suverenliyinin bərpasına möhkəm zəmin yaranmışdır. Bu nailiyyətlər torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi Qələbəyə transformasiya olundu. Əldə edilmiş Qələbə qarşıdakı illərdə sistemli və davamlı islahatlarla yeni imkanlara çevriləcək. Həyata keçirilən sosial-iqtisadi quruculuq və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm əsaslar yaratmışdır".




## YAP Mərkəzi Aparatında

### "Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu" mövzusunda konfrans keçirilib

giyalar bazasında müasir kəndlərin salınması, şəhərlərin yenidən qurulması bu bölgəni təkcə ölkəmizdə yox, dünyada dinamik və sürətlə inkişaf edən bir diyara çevirəcəkdir. Rəsmi açıqlamalara görə, yaxın zamanlarda Qarabağ ərazilərinə Böyük Qayıdışa başlanılacaq, regionun daimi sakinlərinin özlərinin ata-baba torpaqlarına dönüşünə start veriləcəkdir. Bu, müasir Azərbaycan tarixinin ən mühüm tarixi hadisəsidir. Bununla Azərbaycanda otuz il müddətində davam etmiş məşəqqətli qaçqınlıq həyatına, nəhayət ki, son qoyulması prosesi başa çatacaqdır. Bu gün iqtisadi rayonların dayanıqlı və dinamik inkişafı üçün iqtisadi fəaliyyətin modelləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi əsas vacib istiqamətlərdən biridir. Fərəhlə qeyd etmək olar ki, işğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.

YAP Mərkəzi Aparatının rəhbəri deyib ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalı da artacaqdır. Həmin ərazilərdə sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkəsinin yaradılması üçün kifayət qədər xammal və enerji resursları da mövcuddur. Müasir texnika və texnologiya ilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və digər resurslardan səmərəli istifadə etməyə imkanı olan müxtəlif fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin yaradılması regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaratmış olacaqdır. Bu





YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsünün təsdiqlənməsi, yeni iqtisadi rayonlaşma prinsipi bütövlükdə ölkənin bütün ərazisi boyunca iqtisadi fəallığın artırılmasına və dövlət investisiyalarının səmərəliliyinin yüksəldilməsinə, ölkə regionlarında sahibkarlığın və biznesin inkişafına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, yaşayış şəraitinin daha da yaxşılaşdırılmasına əlavə imkanlar formalaşdıracaqdır. Digər tərəfdən, iqtisadi rayonlaşmanın yenilənməsi və yeni iqtisadi rayonların yaranması Vətən müharibəsində qazanılan Zəfərdən sonra formalaşmış obyektiv reallıqları özündə əks etdirir. Dövlət başçısı İlham Əliyev tərəfindən iqtisadi rayonların yeni bölgüsünün təsdiqlənməsi, Azərbaycan torpaqlarının tarixi adlarının bərpası bir sıra ciddi siyasi mesajların verilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Atılan bu kimi addımlar "Qarabağ Azərbaycandır!" şüarının növbəti rəsmi ifadəsi hesab edilə bilər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması dünya səviyyəsində də Azərbaycanın strateji rolunu birə beş artırır, iki yeni iqtisadi rayonun dirçəldilməsində strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin rəqabət qabiliyyətinin, həm də siyasi və iqtisadi qüdrətinin dəfələrlə artmasına real potensial formalaşacaqdır.

Vurğulanıb ki, yaxın dövrdə biz qürurla müstəqil Azərbaycanımızın yeni yaradılan iqtisadi rayonlarının güclü inkişafının şahidi olacağıq. İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və yüksək texnologiyalar əsasında, o cümlədən "ağıllı" texnologiyalar... əminliyin də maddi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə - öz doğma yurdlarına qayıdan fədakar və məğrur insanlar təşkil edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şərqi Zəngəzurda, Laçında və Kəlbəcərdə, Qubadlıda, Zəngilanda və Cəbrayılda təməllərini atdığı hava limanları, yaşayış məskənləri, tunellər, yollar, Ağdamda yaradılacaq Sənaye Parkı, Cəbrayılda inşasına başlanmış "KamAz" Regional Xidmət Mərkəzi, Araz Vadisi İqtisadi Zonası, Kəlbəcərdə məskunlaşmış heyvandarlıq və arıçılıq təsərrüfatları Qarabağın müasir həyatının reallıqlarıdır. Bütün bunlar həm də yeni iş yerləri, daimi məşğulluq sahələridir.

Ardı Səh. 5

# “İşğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir”

## YAP Mərkəzi Aparatında

### "Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu" mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 4

Cəbrayıl rayonunda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin və rayon mərkəzi xəstəxanasının təməlqoyma mərasimlərinin keçirilməsi regionda sosial sahənin də infrastrukturlarının yaradılmaqda olduğunu nəzərə çarpdırır.

”30 il ərzində erməni vandalları tərəfindən darmadağın edilən əraziləri, daşınmaz əmlakı, maddi və mənəvi sərvətləri qısa müddətdə bərpa etmək o qədər də asan olmayacaqdır. Amma onu da əminliklə söyləmək olar ki, xalqımız üçün 30 illik həsrətə son qoyan, öz cəsarəti, uzaqgörən si-




yasəti, diplomatik bacarığı və qətiyyəti ilə doğma Qarabağımızın işğaldan azad edilməsini təmin edən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın bilavasitə dəstəyi ilə çətin və olduqca mürəkkəb sosial-iqtisadi problemlər də qısa müddət ərzində öz müsbət həllini tapacaqdır. Azərbaycanın dövlət müstəqilliyi ölkəmizin hər bir vətəndaşı, bizim hər birimiz üçün ən böyük sərvətlərdən biridir. Bizlərin və gələcək nəsillərin qarşısında duran başlıca vəzifə isə həmin resurslardan qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etmək, həmin ərazilərin bərpası işində yaxından iştirak etməkdir. Əminəm ki, bu sərvəti qoruyub saxlamaq, daha da zənginləşdirmək üçün hər kəs öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəkdir”,-deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib ki, ölkə əhalisinin yarısını təşkil edən qadınların iqtisadi fəallığının artırılması, idarəetmə və qərarların qəbulu prosesinə cəlb olunması mühüm məsələdir. Qadınların özünü realizə etməsi üçün şəraitin yaradılması, iş və ailə həyatı arasında balansın qorunması həm də davamlı iqtisadi artımı təmin edir. Bu, həm də dövlətimizin iqtisadi cəhətdən güclənməsi deməkdir. Bunun üçün dövlət qurumları ilə yanaşı, müxtəlif qadın təşkilatları, özəl strukturlar, qeyri-hökumət təşkilatları tərəfindən davamlı işlər görülür. Hazırda qadınlarımızın cəmiyyətin bütün sahələrinə daha fəal cəlb edilməsi üçün yeni perspektivlər, reallıqlar yaranıb.

Onun sözlərinə görə, dünyada yaranmış mürəkkəb ictimai-siyasi və iqtisadi vəziyyət, eyni zamanda, pandemiya və Qələbə ilə başa çatan Vətən müharibəsi fonunda Azərbaycan müstəqil dövlət olaraq ciddi islahatlar aparıb və bu gün dünyanın inkişaf etmiş nüfuzlu ölkələrindən birinə çevrilib: ”Prezident İlham Əliyev tərəfindən imzalanmış sənədlər, qəbul edilmiş qərarlar sahibkarlığın inkişafına çox böyük dəstəkdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə həyata keçirilən sosial layihələr də qadın sahibkarlığının, xüsusilə həssas qrupdan olan qadınlar arasında sahibkarlığın inkişafına müsbət təsir göstərir. Bu isə sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə qadınların əmək hüquqları və sahibkarlıq fəaliyyəti ilə bağlı güclü qanunvericilik bazası mövcuddur. Lakin müasir dövrün çağırışları, ölkənin qarşısında dayanan vəzifələr bu sahə də dəyişiklikləri zəruri edir”.

Parlamentin komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan qadınları istər pandemiya, istərsə də müharibə dövründə bütün sahələrdə aktiv iştirak etdilər: ”Sahibkar qadınlarımız pandemiya zamanı həssas ailələrə, Vətən müharibəsi zamanı orduya, erməni terrorundan əziyyət çəkən insanlara kömək edirdilər. Azərbaycan Qadın Sahibkarlar Assosiasiyası qısa müddət ərzində sahibkar qadınlarımızın daha da inkişaf etməsinə töhfə verib. Prezident İlham Əliyev çıxışlarında qeyd edir ki, ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır. Əlbəttə ki, sahibkarlıq fəaliyyəti göstərmək hər kəsdən bilik, təcrübə, əmək və satış bazarında yer tutmağı, rəqabətədavamlı olmağı tələb edir. Bu mənada dövlət hər bir sahibkar, o cümlədən qadın sahibkarlar üçün xüsusi dəstək proqramları həyata keçirir. Yaradılmış vəziyyətdən maksimum istifadə etmək lazımdır. Ancaq, eyni zamanda, qarşıya çıxan çətinlikləri də müəyyən etmək və onların aradan qaldırılması istiqamətində işləri daha da gücləndirməliyik. Bu gün sahibkar qadınlarımız şəhid ailələrinə, qazilərə və onların ailələrinə, əlil qadınlara və digər həssas qrupdan olan qadınlara dəstək olurlar”.




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması tarixi ədalətin bərpası ilə yanaşı, regionda yaranmış yeni reallıqların obyektiv nəticəsi kimi qəbul edilir. Onun sözlərinə görə, işğaldan azad edilmiş 10 min kvadratkilometr ərazinin bütün resursları ilə birgə ölkəmizin iqtisadi və təsərrüfat dövriyyəsinə qəbul olunmasının əhəmiyyəti xüsusi vurğulanmalıdır. Bu, həm ölkəmizin qüdrətli bir dövlətə çevrilməsi istiqamətində ”2030 gündəliyinin” iqtisadi-sosial əsaslarının daha da möhkəmlənməsinə, milli və iqtisadi təhlükəsizliyimizin xeyli güclənməsinə töhfə verməklə yanaşı, bölgədə sülhün təmin olunması üçün də münbit şəraitin formalaşmasının təminatlarından biri kimi çıxış edir. Hazırda ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı” layihəsi üzərində iş gedir. Məlumdur ki, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi cəlbediciliyi həm daxili, həm də xarici investisiya yatırımları üçün geniş perspektivlər açır. Müvafiq dövlət orqanları bu istiqamətdə müraciətlərin qeydiyyatı və təhlili barədə ictimaiyyəti məlumatlandırır. Həmçinin işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması yönündə ciddi addımlar atılmaqdadır. Özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın, o cümlədən qadın sahibkarlığının iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün münbit şərait var.



Dövlət Komitəsinin sədri qeyd edib ki, qadınların idarə etdiyi biznes subyektlərinin gücləndirilməsi sahəsində son illər Azərbaycan hökuməti və beynəlxalq təşkilatların səmərəli əməkdaşlığı nəticəsində xeyli irəliləyiş əldə edilib. ”Düşünürəm ki, qadın sahibkarlarımız Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerləşdiriləcək əhali qrupları ilə onların yeni şəraitdə məskunlaşması prosesinə cəlb oluna bilərlər. İlk olaraq hazırda fəaliyyət göstərən sahibkarlar artıq məskunlaşma üçün hazır olan Zəngilanın Ağalı kəndi və Ağdamda məskunlaşacaq sakinlərin tələbatına uyğun layihələr həyata keçirməlidirlər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ailə təsərrüfatlarının yaradılması qadın sahibkarlar üçün vacib gündəlik ola bilər. Təmsil etdiyim Dövlət Komitəsinin qadın sahibkarlığının inkişafı və təşkilatlanmasında iştirakını qeyd edərək bildirirəm ki, bu istiqamətdə fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının bu mövzuda tədbirlər keçirməsini də çox əhəmiyyətli hesab edirəm”, - deyə B.Muradova vurğulayıb.




Konfransda çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, bu gün iqtisadi və sosial inkişafın səmərəliliyinə nail olmaq, iqtisadi inkişaf və yüksəlişdən bəhrələnmək üçün cəmiyyətdə olan qadınların mövcud potensial imkanlarından istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla, KOBİA qadın sahibkarlığının inkişafını təşviq etmək, kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artması üçün müvafiq tədbirlər həyata keçirir. KOBİA olaraq, biz bu və ya digər dəstək tədbirlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını da əhatə etməsində maraqlı olmaqla yanaşı, həmin bölgələrdə qadın sahibkarlığının inkişafı üçün müvafiq dəstəyin göstərilməsinə hər zaman hazırıq.

O.Məmmədov qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması fonunda qadın sahibkarların iştirakı ilə bu cür tədbirlərin və müzakirələrin təşkili vacibdir: ”Düşünürəm ki, bugünkü tədbirin təşkili qadın sahibkarların Qarabağ və Şərqi Zəngəzurda biznes təşəbbüslərinin reallaşdırılması üzrə mövcud vəziyyətin öyrənilməsi, qadınların təkliflərinin dinlənilməsi və onların sözügedən iqtisadi rayonlarda sahibkarlıq fəaliyyətinin təşviqi baxımından əhəmiyyətli olacaq. Sevindirici haldır ki, işğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərənlər qadın sahibkarlarımız da var. Bu günədək işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya daxil olan 980 müraciətdən 42-si qadın sahibkarlara aiddir ki, onların da 24-ü investisiya layihələri, 18-i isə digər iş və xidmətlərin həyata keçirilməsinə aiddir. Biznes qurmaq istəyən qadın sahibkarların təqdim etdikləri layihələrin 13-ü ticarət və xidmət, 10-u sənaye, 6-sı kənd təsərrüfatı, 6-sı turizm, 4-ü tikinti işləri, 2-si təhsil, 1-isə səhiyyə sahələri üzrə olub. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi və sosial inkişafında səmərəliliyə nail olunması, iqtisadi inkişaf və yüksəlişdən bəhrələnmək üçün qadın sahibkarların rolunu önəmli hesab edirik. Son illərdə qadın sahibkarların sayının artması sözügedən ərazilərdə məşğulluğun inkişafına yardım edəcək.

Ardı Səh. 6

# “İşğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir”

## YAP Mərkəzi Aparatında

### "Qarabağın və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu" mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 5

Bildirmək istərdim ki, regionlarda, o cümlədən Qarabağın və Şərqi Zəngəzur iqtisadi rayonlarında qadınların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, onların bilik və bacarıqlarının artırılması, biznes planlarının hazırlanması, onların maliyyə resurslarına çıxışında dəstək göstərilməsi və bu kimi istiqamətlərdə zəruri tədbirlərin həyata keçirilməsinə KOBİA tərəfindən müvafiq dəstək göstəriləcək”.

Konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, ölkəmizdə güclü sahibkarlıq ordusu formalaşıb. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının inkişafında özəl sektor mühüm rol oynayır. Ötən il ÜDM artımı 5,6 faiz həcmində olub. Bu artımlar daha çox qeyri-neft sektorunun inkişafı hesabına baş verir. Ötən il qeyri-neft sektorunda 7,2 faiz artıb baş verib. Qeyri-neft sənayesi isə 19 faizə yaxın artıb.







Nazir müavini qeyd edib ki, inklüziv inkişafın təməl prinsiplərinə əməl olunması ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ana xəttidir. O bildirib: ”Əksər ölkələrdə iqtisadiyyatda tənəzzül baş versə də, Azərbaycan iqtisadiyyatında artım baş verdi. Bunun səbəbləri pandemiya ilə əlaqədar məcburi məhdudiyyətlərin yumşaldılması, peyvəndləmə, sahibkarlara dəstək proqramı olub. Yeni iqtisadi şəraitə uyğun olaraq həyata keçirilən islahatlar, kölgə iqtisadiyyatı ilə mübarizədə həyata keçirilən tədbirlər və digər beynəlxalq təcrübədə təsdiqini tapmış mexanizmlər nəticəsində Azərbaycanda sahibkarlar ordusu formalaşıb. Bu gün Qarabağda quruculuq prosesi gedir. Bu gün bu iqtisadi potensial olmasaydı, bu proses çox çətin olardı. Özəl sektorun quruculuq prosesinə cəlb edilməsi bu işlərin sürətlə həyata keçirilməsinə zəmin yaradır. Bu gün ölkəmizdə sənayeləşmə prosesi gedir, bu, bölgələrin inkişafında mühüm rol oynayacaq. Bu istiqamətdə işlər davam etdiriləcək. Təşəbbüskar qadın sahibkarlarımızın azad edilmiş ərazilərlə bağlı müraciətləri, layihələri dəyərləndiriləcək və müvafiq dəstək göstəriləcək. Bu istiqamətlərdə görüləsi işlərimiz çoxdur və hər birimiz elə etməliyik ki, bütün sahələrdə innovativliyi təmin etməklə həyata keçirdiyimiz işlərin səmərəliliyini artıraq, işğaldan azad olunmuş ərazilərimizdə normal həyat şəraitini bərpa etməklə yanaşı, həmin əraziləri nümunəvi, əhalimiz və turistlər üçün cəlbedici bir bölgəyə çevirək”.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova isə çıxışında bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında aparılan quruculuq işlərinin yekun hədəflərindən biri bölgənin iqtisadi potensialından maksimum səmərəli istifadə etməklə həm də məşğulluğun təmin edilməsi olacaq. Onun sözlərinə görə, məşğulluğun tam təmin edilməsi gələcəkdə həmin ərazilərin iqtisadi mərkəzlərə çevrilməsində mühüm rol oynayacaq. Azərbaycanın aqrar sektorunda çalışan insanların təxminən yarısı qadınlardır. Bu səbəbdən azad olunmuş torpaqlarda da onların fəallığı qaçılmazdır. Böyük Qayıdışdan sonra qadınlarımız fermer, aqrar sahibkarlıq fəaliyyətləri ilə o torpaqların dirçəldilməsi işinə töhfələrini vermiş olacaqlar. İndiki məqamda artıq qadın fermerlərimiz bu prosesin bir hissəsinə çevriliblər. Belə ki, işğaldan azad edilmiş torpaqlarımızda ilk kənd təsərrüfatı fəaliyyətinin iştirakçıları arasında qadın fermerlərimiz də var.

İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı potensialından maksimum səmərəli istifadə etməyin qarşıya qoyulan əsas vəzifələrdən biri olduğunu deyən nazir müavini qeyd edib: ”Azad olunmuş ərazilərdə kənd təsərrüfatı fəaliyyətinin planlaşdırılması işində xüsusilə aqrar emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Bu, həm ölkənin ərzaq təhlükəsizliyinin daha yaxşı şəkildə təmin olunması, həm də azad olunmuş ərazilərdə məşğulluğun təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ötən ilin iyununda ilk dəfə olaraq Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə Kəlbəcər və Laçın yaylaqlarına arıçılıq və qoyunçuluq təsərrüfatlarının köçürülməsi həyata keçirilib. Qeyd etdiyim bütün bu təsərrüfatlarda qadınlarımız da birgə təsərrüfat fəaliyyəti ilə məşğul olublar. Xüsusilə də bal süzümü, qoyunçuluq təsərrüfatlarında sağım, ilkin emal prosesində qadınlar fəal iştirak ediblər, onların təsərrüfat fəaliyyəti məqsədilə xüsusi rejim tətbiq olunan ərazilərə daxil olması üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hər cür köməklik göstərilib. Ötən il azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin olunması istiqamətində atılan ən mühüm addımlardan biri Zəngilan və Füzuli rayonları ərazisində ”Ağıllı kənd”lərin inşası olub. Hazırda Zəngilan rayonunun Ağalı kəndində ilk ”Ağıllı kənd”in inşası başa çatmaq üzrədir, Füzuli rayonunun Dövlətyarlı kəndində isə tikinti işlərinə hazırlıq gedir. Zəngilanda inşa olunan ”Ağıllı kənd” azad olunmuş ərazilərə qayıdışın ilk məntəqəsi olacaq. Nazirlik tərəfindən kəndə köçürüləcək vətəndaşların yaş qrupları, peşə ixtisasları və digər kateqoriyalar üzrə təsnifatı aparılır, xüsusilə də qadın icmalarının doğma yurdlarına qayıdışdan sonra təsərrüfat fəaliyyətlərində iştirak imkanları müəyyənləşir. 30 illik fasilədən sonra öz yurdlarına qayıdacaq soydaşlarımızın həm də kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğulluq imkanları ”Ağıllı kənd”in layihəsində ilk gündən nəzərə alınıb. Kəndə qayıdacaq qadınlarımız torpaqlarımız azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsinin aqrar sahədə fəaliyyət göstərən ilk qadın fermerlər kimi tarixə düşəcəklər”.

Konfransda çıxış edən Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva ölkəmizdə sahibkarlığın inkişafına dövlət tərəfindən böyük dəstəyin verildiyini bildirib. O qeyd edib ki, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası təsis olunduğu vaxtdan sahibkarlar və sahibkar olmaq istəyən qadınlar üçün mühüm layihələr reallaşdırıb. Belə ki, Bakıda və regionlarda qadınlar üçün biznesin inkişafına dair təlimlər, güzəştli maliyyə resurslarına çıxışla əlaqədar tədbirlər keçirilib. İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Sahibkarlar Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və digər təşkilatlarla birgə sahibkarlara dəstək məqsədilə görülən işlər müsbət nəticələr verib.







S.Babayeva çıxışında sahibkar qadınların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirmək istədikləri biznes layihələrini də təqdim edib. Həmin layihələr tekstil, kənd təsərrüfatı məhsullarının emalı, quşçuluq təsərrüfatı, turizm, sığorta və digər sahələri əhatə edir. O, qadın sahibkarların azad olunmuş ərazilərimizin iqtisadiyyatının inkişafına töhfələr verəcəyini vurğulayıb.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbirdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu barədə maraqlı müzakirələrin, fikir mübadiləsinin aparıldığını bildirib. Onun sözlərinə görə, qadın sahibkarlar tərəfindən təqdim olunmuş layihələr xüsusilə cəlbedicidir. Belə ki, bu layihələrin icrası işğaldan azad olunmuş ərazilərimizə qayıdacaq əhalinin tələbatını ödəməklə yanaşı, yeni iş yerlərinin yaradılması, insanların məşğulluğunun təmin olunması, sosial rifahının yüksəlməsi, iqtisadiyyatın inkişafı baxımından önəmlidir. YAP Sədrinin müavini bu layihələrin həyata keçirilməsi işində qadın sahibkarlara uğurlar arzulayıb.

**Yanvarın 24-də Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Medianın İnkişafı Agentliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə təşkil etdiyi "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda üçgünlük təlimlərin açılışı olub. AZƏRTAC xəbər verir ki, jurnalistlər üçün keçirilən təlimlərin məqsədi Azərbaycandakı media nümayəndələrinin müharibədən sonrakı dövrdə fəaliyyətlərinə töhfə verməkdir.**




## Əhməd İsmayılov:

# "Azərbaycan jurnalistləri hər zaman fədakarlıqları ilə seçiliblər"

Təlimlərin açılış mərasimində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva və başqaları iştirak ediblər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, təlimlərin təşkilində əsas məqsəd beynəlxalq qurumlarla işləyən və media sahəsində çalışan jurnalistlərin peşəkarlığının artırılmasıdır. Onun sözlərinə görə, media nümayəndələri beynəlxalq qurumlarla, səfirliklərlə sıx işləməli, həqiqətlərin dünyaya çatdırılmasında daha fəal olmalıdırlar.

Media sahəsində müəyyən problemlərin olduğunu diqqətə çatdıran F.Şəfiyev beynəlxalq əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, jurnalistlər məzmun yaratmalıdırlar. Məqsəd odur ki, beynəlxalq münasibətlər çərçivəsində əlaqələr daha da inkişaf etdirilsin, Azərbaycanın səsi beynəlxalq aləmdə daha yaxşı eşidilsin. Bu mənada araşdırma xarakterli yazıların sayı artırılmalıdır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, müharibədən sonrakı reallıqların beynəlxalq ictimaiyyətə çatdırılmasında medianın üzərinə böyük məsuliyyət düşür. Postmüharibə və postmünaqişə dövründə bu mövzuda təlimlərin təşkili mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq sahədə ixtisaslaşmış jurnalistlərə böyük ehtiyac duyulur.

Ə.İsmayılov diqqətə çatdırıb ki, Azərbaycan jurnalistləri hər zaman fədakarlıqları ilə seçiliblər. Biz bunu Vətən müharibəsi dövründə də gördük. Jurnalistlər peşəkarlıqlarını daim artırmalıdırlar. Media nümayəndələrinin peşəkarlığı ölkə daxilində qalmamalı, sərhədləri aşmalıdır.

İcraçı direktor Medianın İnkişafı Agentliyinin bu platformanı öz üzərinə götürəcəyini və prosesin davam etdiriləcəyini bildirib. Bu platformanın həm jurnalistlərin peşəkarlığının artırılmasına, həm də ümumi işə fayda verəcəyini qeyd edən Ə.İsmayılov təlimlərə xarici mütəxəssislərin də cəlb olunacağını diqqətə çatdırıb.

İcraçı direktorun sözlərinə görə, qarşıya qoyulan məqsədlərdən biri də rəqəmsal medianın inkişaf etdirilməsidir. Əhməd İsmayılov vurğulayıb ki, son dövrlərdə sosial şəbəkələrin təsirinin artması danılmazdır. Media sahəsində rəqəmsallıq, sosial şəbəkələrlə iş və peşəkarlıq vəhdət təşkil etməlidir. Jurnalistin adi vətəndaşdan fərqi hadisələri obyektiv və qərəzsiz təqdim etməsidir.



Burada maarifləndirmə də mühüm şərtdir.

Açılış məqasimindən sonra Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Azərbaycanın müharibədən sonrakı dövrədə mövqeyinin beynəlxalq mediaya düzgün çatdırılması dili və terminologiyanın dəyişməsi", Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik-leytenant Anar Eyvazov "Media nümayəndələrinin işğaldan azad olunmuş bölgələrdə davranışı" və BMTM-in baş məsləhətçisi Vasif Hüseynov "Xarici mediada Azərbaycan həqiqətlərinin çatdırılmasına dair məqalələrin yazılması" mövzularında təlimlər keçiblər.

# "Azərbaycan regionun nəqliyyat sektorunda önəmli aktordur"

"Bugün Azərbaycan təkcə Cənubi Qafqazda deyil, ümumiyyətlə, bütün regionda iqtisadi və siyasi imkanlarından istifadə edərək özünü önəmli aktor kimi təqdim edir. Rəqəmlərə əsaslanıb deyə bilərik ki, Azərbaycan Cənubi Qafqaz ölkələrinin ümumi iqtisadiyyatının 85 faizinə sahibdir. Bölgədə heç bir iqtisadi layihə ölkəmizin razılığı olmadan reallaşa bilməz". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, Azərbaycanın önəmi, iqtisadi imkanları Rusiya, İran və Türkiyənin iştirak etdiyi layihələrdə də nəzərə alınır: "30 ildən artıq Ermənistanın işğalçılıq siyasəti nəticəsində bağlanmış və infrastrukturu darmadağın edilmiş kommunikasiya xətləri 44 günlük Vətən müharibəsindən sonra yenidən bərpa olunmaq ərəfəsindədir. Müharibənin Qalib Sərkərdəsi, Prezident İlham Əliyevin "Zəngəzur dəhlizi" ifadəsini leksikonumuza gətirməsi ilə bölgədə yeni reallıqlar yaranıb. İlk dövrlər yalnız Azərbaycanda siyasi dairələrdə teztez adı çəkilən "Zəngəzur dəhlizi", bu gün bütün region ölkələrində müzakirə olunur. Bu dəhlizin əhəmiyyəti vurğulanır, rentabelliyi araşdırılır. Hətta Ermənistanın hakim dairələri "Zəngəzur dəhlizi"nin açılmasından sonra İran, Rusiya və Avropa ölkələrinə




çıxış əldə edəcəklərini vurğulayırlar. Azərbaycan ikinci dəhliz vasitəsilə hərəkət edəcək qatarla Naxçıvana, qardaş Türkiyəyə və oradan da Avropaya müxtəlif çeşidli mallar daşıya biləcək. Bu dəmir yolu xəttindən Orta Asiya ölkələri də istifadə edə biləcəklər".

A.Hüseynov qeyd edib ki, Prezident İlham Əliyev bu gün İranın yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən də Şimal-Cənub nəqliyyat xəttinin ən önəmli hissəsinin - Astaraçay üzərindəki yeni avtomobil körpüsünün inşasının ölkələrimiz arasında iqtisadi əlaqələrə müsbət təsir göstərəcəyini vurğuladı: "Körpünün olmaması böyük növbələrin yaranmasına gətirib çıxarırdı. Yeni körpünün tikintisi isə bu sahədə problemlərin həllinə kömək edəcək. Həmçinin, yeni körpü yükdaşımaların artımına xidmət edəcək. Vətən müharibəsindən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət alıb. Əməkdaşlığın genişlənməsinə 3+3 platforması da ümidvericidir. Artıq birinci görüş keçirilib. Bu görüşlərin müntəzəm olacağına ümidimiz çoxdur. Əslində ölkəmizin iştirak etdiyi bütün iqtisadi layihələr işğaldan azad edilmiş Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında reallaşdırılan meqalayihələrin həyata vəsiqə qazanması üçün böyük stimuldur. Bu addımlar həm də Azərbaycanın etibarlı tərəfdaş, önəmli iqtisadi partyor olduğunu əməldə sübut edir ki, bu da ölkələr arasında münasibətlərin genişlənməsində önəmli rol oynayır".

# Ata-baba yurduma getmək üçün səbirsizlənirəm

Yanvarın 24-dən işğaldan azad edilmiş ərazilərə sərnişin avtobuslarının müntəzəm reysləri başlayır. Avtobus reysləri Bakı-Şuşa, Bakı-Ağdam, Əhmədbəyli-Şuşa, Füzuli Beynəlxalq Hava Limanı-Şuşa və Bərdə-Ağdam istiqamətlərində şəhərlərarası avtobus marşrutları ilə yerinə yetirilir. Artıq hər bir marşrut üzrə sınaq səfərləri həyata keçirilib, istismar ediləcək avtobusların sinifləri müəyyən olunub. Reyslər Əhmədbəyli-Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə isə 2 dəfə olmaqla təşkil edilir. Füzuli Beynəlxalq Hava Limanı-Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareysləri ilə uzlaşdırılacaq. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sərnişin marşrut avtobuslarının hərəkəti polislər tərəfindən müşayiət ediləcək.

Bəs gəlin görək, işğaldan azad olunmuş ərazilərimizə avtobus reyslərinin açılmasına paytaxt sakinlərinin təəssüratlar necədir? SİA olaraq onlar arasında sorğu keçirdik.

**Şəhər sakini Gözəl Əsədli:** "Biz bu günlərin 30 ildi həsrətini çəkirik.



Hər bir azərbaycanlı vətəndaşının öz mənliyinə borcudur ki, həmin ərazilərə gedib gəzsin. Bu əraziləri daha da dərindən tanımaq, həmin yerlərin havasını almaq hər birimizin arzusudu".

**Şəhər sakini Şəlalə Novruzova:** "Bizim milli ruhumuz və vətənpərvərlik hissimiz hər bir dövlətin vətəndaşından üstündür. Birinci ana kimi daha sonra isə bir müəllimə kimi hər zaman



öz övladlarımı və övlad saydığım şağırdlərimi çalışdığım qədər milli ruhda böyütməyə çalışıram. Mən qarabağlı deyiləm. Lakin ən böyük arzum bu torpaqların alınması olub. Hal-hazırda isə ən böyük arzum həmin əraziləri gəzməkdi. Çünki mən Qarabağlı olmasam da, azərbaycanlıyam. Mənim 2 oğlumda hərbiçidi. Həmçinin 8 yaşında nəvəm böyüyəndə hərbiçi olmaq istəyir".

**Şəhər sakini Məlahət Bayramova:** "Mən bu günləri 30 ildi gözləyirdim. Hiss edirdim və əmin idim ki, bu torpaqlar bizə nə zamansa qayıdacaq. Atobus reyslərinin açılışı və işğaldan azad olunmuş ərazilərə yola düşməsi bizi qürurlandırdı. Bu 30 il ərzində dərslərdə və tədbirlərdə hər zaman uşaqlara bu barədə məlumat verirdik. Torpaqlarımızın işğalda olması elə bil ki,



çiyinlərimizdə ağır bir yük idi. Hətta bildiyim qədəri ilə fevralın 2-nə kimi bütün biletlər artıq alınmışdı. Bunların hər biri çox sevindirici bir haldı. Hal-hazırda işğaldan azad olunmuş ərazilərimizdə təmizlənmə işləri gedir. Bilirsiz ki, bu təmizlənmə işləri bitdikdən sonra digər rayonlarımıza da reyslər açılacaq".

**Şəhər sakini Dilşad Qafarova:** "Belə bir lahiyə həyata keçirildiyi üçün çox sevinirəm. Sevindirici bir haldır ki, rayonlarımıza reyslər açılıb. Bizim



üçün o rayonları gedib gəzmək çox dəyərlidi və müqəddəsdi".

**Şəhər sakini Məleykə Məmmədova:** "Həmin yerləri gedib gəzmək mənim arzumdu. Hətta planlaşdırıram ki, yaz ayında həmin yerləri gedim gəzim. Bu şansı bizə bəxş etdiyinə görə öncə



cənab Prezident İlham Əliyevə daha sonra isə Azərbaycanın igid oğullarına öz təşəkkürlərimi bildirirəm".

**Şəhər sakini Şahsuvar Fətullayev:** "Həmin ərazilərin işğaldan azad olunmasında bir hərbçi kimi iştirak etmişəm. Bugünkü gün Azərbaycan əhalisinin həmin yerlərə səfər etməsi və



dogma torpaqlarına qayıtması bizi sevindirir. O, torpaqlarda həyat canlanmalıdır ki, orada xidmət edən bütün orqan işçiləri özlərini rahat hiss etsinlər".

**Şəhər sakini Vəfa Zeynalova:** "Təbii ki, qürurverici bir hissdi. İnşallah bir gün mənə də oraları gedib görmək qismət olar. Düşünürəm ki, təkcə mən yox bir çox insan bu lahiyənin həyata keçirilməsindən çox məmnundu. Mən özüm də Şuşa rayonundanam. Çox sevinirəm ki, ata və babalarımın danışdığı həmin yerləri gedib görmək



mənə qismət olacaq".

**Şəhər sakini İsfahan Əhmədov:** "Mən bir azərbaycanlı vətəndaşı olaraq çox sevindim. Gün o gün olsun ki,



Ağdərəyə, Xankəndinə, Xocalıya, Laçına, Zəngilana bu reyslər açılsın. Bizdə öz doğulduğumuz yerləri gedib görək".

**Şəhər sakini Ruhiyyə Əskərova:** "Mən bu ölkənin vətəndaşı olaraq bugünkü gün həmin ərazilərimizin alın-



masına və torpaqlarıma reyslərin açılmasına görə çox xoşbəxtəm. Təkcə mən yox, bütün hamı bu hadisə ilə qürur duymalıdı. İnşallah bir gün İsa bulağına gedib oranın suyundan içək. Qan yaddaşımız olan Xocalını ziyarət edək".

**Şəhər sakini Rasim İbrahimov:** "Hər bir azərbaycanlı vətəndaşının arzusu həmin əraziləri gedib görməkdir.



Biz arzu edirik ki, daimi yaşayış yerləri bərpa olunsun. Həmin torpaqların vətəndaşları öz yurdlarına qayıtsınlar. Mənim ətrafımda dostlarım var ki, həmin torpaqlarda doğulublar. Onlar da rayonlarına getmək üçün çox səbirsizlənirlər".

***Banuçiçək Hüseynli***

# Ermənistanda vəziyyət gündən-günə pisləşir!

**Ermənistanda vəziyyət gündən-günə pisləşir və bu təbiidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri vurğulayıb ki, yaranmış böhran ölkənin hərbi-siyasi rəhbərlərinin son illər yürütdükləri millətçilik siyasətinin nəticəsidir.**



"Dövlətçilik tarixi və torpaqları olmayan bir xalqın özünü dünyanın ən ali və qədim tarixə malik xalqı adlandırması, təcavüzkarlıq, xəyanət yolunu tutaraq özgələrinin torpaqlarına yiyələnməsi, varlığını belə saxtalaşdırması vəziyyəti yaradan başlıca amillərdir və başqa cür də ola bilməz. Bu günün reallıqları da bunu bir daha sübut edir. Qonşu olduğu dövlətlərə, Gürcüstana, Azərbaycana, Türkiyəyə qarşı daim torpaq iddialarında olan, təcavüzlərə, təxribatlara əl atan Ermənistan yalnız kağız üzərində, sözdə müəyyən irəliləyişlərə nail olub, həyatda isə yaxşı heç nə qazanmayıb, əyilib, əzilib, başqalarının kölgəsinə sığınıb, olan-qalan var-dövlətini, müstəqilliyini itiribdir.

30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, Türkiyəyə meydan oxuyan Ermənistan 44 günlük müharibədə sarsıdıcı zərbə alandan, burnu əziləndən sonra bu gün zəlil vəziyyətə düşübdür və demək olar ki, köməyə möhtacdır. Bu işğalçı ölkə tamamilə çöküb, iqtisadi-siyasi böhran, qarşıdurmalar, müharibədə ağır məğlubiyyət erməni xalqını çıxılmaz vəziyyətə salıbdır. Prezident Armen Sarkisyanın istefası ölkədəki siyasi gərginliyi daha yüksək həddə çatdırıb və xaosun qarşıdurmaların yeni mərhələsinə təkan veribdir. Ancaq bunu Ermənistanda hakimiyyətdə olanlar sanki görmürlər. Paşinyan yenə də yüksəlişdən, yeni iş yerlərinin açılmasından, insanların fəallığından, beynəlxalq aləmdə qazanılan uğurlardan söz açır və populist çıxışları ilə xalqı aldatmaqla məşğuldur. Müxalifətdə olanlar isə revanş götürmək, torpaqları geri qaytarmaq arzusundadırlar və yalan vədlərlə insanların başlarını qatırlar. Əlbəttə bu korluq, reallıqları dərk etməmək baş verən hadisələri qiymətləndirməməkdir. Ermənistana rəhbərlik edənlərin bəlası da budur və bu bəla onları daha ağır vəziyyətə salacaqdır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



# Ayağı sayalı “Şuşa İli” - azad edilmiş rayonlara marşrutların açılması və ilk “Ağıllı kənd”in inşası başa çatdı

## Prezident İlham Əliyev: "Mənim sözüm imzam qədər qüvvətlidir!"

Təhlil

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur.

Və 2022-ci ilin "Şuşa İli" elan olunması və bu ilin ilk ayından ayağı sayalı olması, məhz Prezident İlham Əliyevin xalqın - hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir",-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!Müzəffər Ali Baş Komandanın "Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik".

Bəli, nəticə göz qabağındadır. Bu gün - 29 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.

### İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARA MARŞRUTLAR AÇILMASI İLK "BÖYÜK QAYIDIŞ"IN ADDIMLARI

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 illik erməni işğalından azad olunmuş ərazilərimizdə bu gün genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Yeni infrastruktur və sosial layihələr icra olunur, müasir avtomobil və dəmir yolları çəkilir, hava limanları açılır. Bu baxımdan, azad olunmuş ərazilərdə nəqliyyat infrastrukturunun yenidən qurulması, bu rayonlarda istər quruculuq dövründə, istərsə də sonrakı illərdə yük və sərnişin daşınmasına tələbatın təmin edilməsi, beləliklə, nəqliyyat xidmətlərinin bərpası sosial zərurətdən irəli gəlir və əsas prioritetlərdəndir.

Şübhəsiz, Qarabağın dirçəlişinə aparan "Böyük Qayıdış" proqramının birinci mərhələsi işğal olunmuş ərazilərdə nəqliyyat infrastrukturunun yaradılmasıdır. Artıq azad olunmuş ərazilərə yanvarın 24-dən etibarən ilk müntəzəm avtobus marşrutlarının açılması baş tutdu.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümbətovun sözlərinə görə, təhlükəsizlik tədbirləri və infrastruktur imkan verdiyi təqdirdə işğaldan azad olunan digər istiqamətlərdə də sərnişin marşrutlarının açılması təmin ediləcək. Bununla bağlı hər hansı qərar qəbul olunduqda, ictimaiyyətə məlumat veriləcək: "Hazırda elan olunan istiqamətlər Şuşa və Ağdamdır. Bunun da başlıca səbəbi təhlükəsizlikdir. Artıq Şuşa şəhərində minatəmizləmə işləri aparılarkən ərazinin o qədər də çirklənmədiyi, yalnız mərmi sursatları aşkarlandığı məlum olub. Bununla yanaşı, bildiyiniz kimi, ora aparan müasir "Zəfər" yolu inşa olunub, istismara verilib və sərnişinlər ora təhlükəsiz qaydada çata bilərlər. Ağdama ötən ilin yay aylarından etibarən silsilə səfərlər təşkil olunub. O marşrut özü də tamamilə təhlükəsiz hesab olunur". O həmçinin əlavə edib ki, hazırda bu istiqamətlər üzrə yalnız Azərbaycan vətəndaşları səfər edə bilər: "İndiki mərhələdə bu, yalnız Azərbaycan vətəndaşları üçün nəzərdə tutulur. Onlar həmin ərazilərə yalnız gedib, ziyarət edib və geri dönə bilərlər".

Həmçinin o da vurğulanıb ki, reyslər Əhmədbəyli-Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə isə 2 dəfə olmaqla təşkil ediləcək. Füzuli Beynəlxalq Hava Limanı Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareysləri ilə uzlaşdırılacaq. Növbəti günlərdə marşrut xətlərinə bilet satışı onlayn qaydada həyata keçiriləcək. Vətəndaşlar "Yolumuz Qarabağa" portalı vasitəsilə onlayn bilet ala biləcəklər. Bir sözlə, bu marşrutların açılması "Böyük Qayıdış"ın çox iri addımlarından biridir.

### BEYNƏLXALQ STANDARTLARA ƏSASLANAN YENİ İNKİŞAF MODELİ - İLK "AĞILLI KƏND"İN İNŞASI BAŞA ÇATDI

Prezident İlham Əliyev Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsinin təməlqoyma mərasimində bildirib ki, bu dağılmış Ağalı kəndi bərpa olunacay. Artıq bu gün Zəngilan rayonunun Ağalı kəndində ilk "Ağıllı kənd"in inşası başa çatıb. Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova Bakıda keçirilən "Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığın rolu" mövzusunda konfransda bildirib ki, Zəngilan rayonunun Ağalı kəndində ilk "Ağıllı kənd"in inşası başa çatıb: "Zəngilandakı "Ağıllı kənd" işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın ilk məntəqəsi olacaq. Hazırda nazirlik kəndə köçürüləcək ilk vətəndaşların yaş qrupları, peşə ixtisasları və digər kateqoriyalar üzrə təsnifat aparır. Xüsusilə də qadın icmaların doğma yurdlarına qayıdışdan sonra iş imkanları müəyyənləşdirilir. 30 illik fasilədən sonra öz yurdlarına qayıdacaq soydaşlarımızın kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olmaq üçün imkanları "Ağıllı kənd"in layihəsində ilk gündən nəzərə alınıb. Hazırda Füzuli rayonunun Dövlətyarlı kəndində 2-ci "Ağıllı kənd"in inşasına hazırlıq görülür", - deyə o, qeyd edib.

### "AĞILLI ŞƏHƏR" VƏ "AĞILLI KƏND" STRATEGİYASINA UYĞUN OLARAQ ATILAN ADDIMLAR

Azərbaycanın təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınması və nüfuz qazanması, yeniləşməni, modernləşməni həyata keçirdiyi siyasətin əsası kimi qəbul etməsi işğaldan azad edilmiş ərazilərimizdə bərpa, quruculuq işləri çərçivəsində həyata keçirilən layihələrdə də özünün aydın ifadəsini tapır. Belə ki, dövlət başçısı İlham Əliyevin "Ağıllı şəhər" və "Ağıllı kənd" strategiyasına uyğun olaraq atılan addımlar bir daha ölkəmizin gücünün və qüdrətinin, hansı imkanlara malik olmasının təqdimatıdır. Göründüyü kimi, azad edilmiş ərazilərdə ən müasir texnologiyalar tətbiq edilir. Bu, artıq reallıqdır. Zəngilanda birinci "ağıllı kənd"in inşası başa çatdı. Tezliklə Ağalı kəndi sakinlərini qarşılayacaq, soydaşlarımızın Böyük Qayıdışı başlayacaq. Bu da, öz növbəsində, son illər dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına dəstək olacaq. Soydaşlarımızın bu torpaqlara Böyük Qayıdışı ərazilərimizin malik olduğu potensialdan səmərəli istifadəni təmin edəcək və Azərbaycanın dayanıqlı inkişafı üçün geniş imkanlar yaranacaq.

Sevindirici və qürurvericidir ki, bir ildir qalib Lider İlham Əliyevin "Ağıllı şəhər" və "Ağıllı kənd" strategiyasına uyğun olaraq atılan addımlar bir daha ölkəmizin gücünün və qüdrətinin, hansı imkanlara malik olmasının təqdimatıdır. Və qalib ölkənin qalib Prezidenti kimi işğaldan azad edilmiş ərazilərimizə hər səfəri və səfər çərçivəsində Qarabağımızın cənnətə çevrilməsi üçün tapşırıqlarını verməsi, müəyyən obyektlərin yenidən bərpa olunduqdan sonra açılışında, həmçinin təməlqoyma mərasimlərində iştirak etməsi, şəhərlərin baş planı təqdim olunması, bir sözlə bütün bu işlər dövlət başçımızın sözünün imzası qədər güclü oluğunun reallıqlarıdır. Və azad edilmiş ərazilərdə ilk "Ağıllı kənd"in inşasının başa çatması Qarabağa "Böyüş Qayıdış"ın başlandığı ilk addımıdır. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək.

Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bəli, bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır.

Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2022-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlarda görülən işlərin uğurlu, sevincdolu müjdəsini eşitmək hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi olur ki, torpaqların əsl sahibləri qayıdıb...Və mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**





# “Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər” mövzusunda təlim keçirilib

***Xəbər verdiyimiz kimi, media nümayəndələri üçün ”Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər” mövzusunda təlim keçirilib. SİA xəbər verir ki, Dövlət Gömrük Komitəsi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə 40-a yaxın media qurumunun nümayəndəsi iştirak ediblər.***

Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Natiq Axundov çıxış edərək bildirib ki, təlimin məqsədi Prezident İlham Əliyev tərəfindən



gömrük sistemində həyata keçirilən islahatlar çərçivəsində tətbiq edilən yeniliklər, layihələr və dəyişikliklərlə bağlı jurnalistlərin məlumatlandırılmasıdır: ”MEDİA Agentliyi ilə birgə təşkil etdiyimiz bu tədbir həm də gömrük-media əlaqələrinin daha da gücləndirilməsində, sahəvi jurnalistikanın inkişafında, media nümayəndələrinin gömrük sahəsindəki biliklərinin artırılmasında mühüm rol oynayacaq”.

Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova bildirib ki, ölkənin müxtəlif orqanlarında gerçəkləşdirilən islahatlar barədə məlumatların cəmiyyətə düzgün çatdırılması, müxtəlif hədəf qruplarının bu sahədə baş verən dəyişikliklərin məzmun və mahiyyətindən zamanında xəbərdar olması, bu xüsusda dövlət qurumlarının media subyektləri ilə peşəkar əməkdaşlığının gücləndirilməsi Medianın İnkişafı Agentliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır: ”MEDİA Agentliyi olaraq jurnalistlərin sahəvi biliklərinin artırılması məsələlərinə xüsusi önəm veririk və Dövlət Gömrük Komitəsi ilə birgə keçirilən bu təlimin faydalı olacağına əminik”.

Təlim çərçivəsində Dövlət Gömrük Komitəsinin mütəxəssisləri tərəfindən gömrük sahəsində risklərin idarə edilməsi, informasiya texnologiyalarının tətbiqi, hüquqpozmalarla mübarizə, fiskal fəaliyyət, ”Yaşıl Dəhliz” buraxılış sistemi, avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesindəki dəyişikliklərə dair təqdimatlar nümayiş edtirilib. Eyni zamanda, Medianın İnkişafı Agentliyinin mütəxəssisləri ”Media islahatları: əsas hədəflər” mövzusunda təqdimatla çıxış ediblər.

Təlim çərçivəsində jurnalistlərin Dövlət Gömrük Komitəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin ”Astara” gömrük postuna səfəri təşkil olunub, eyni zamanda səfər zamanı jurnalistlər gömrük sistemində tətbiq edilən yenilikləri əyani şəkildə müşahidə etmək imkanı yaradılıb.

Tədbir zamanı maraqlı açıqlamalar və fikirlər də səsləndirilib. Belə ki, Dövlət Gömrük Komitəsi (DGK) Əməliyyat-istintaq Baş İdarəsi rəisinin 1-ci müavini Güloğlan Muradlı Lənkəran şəhərində DGK və Medianın İnkişafı Agentliyinin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün ”Gömrük sistemində islahatlar: Nəticələr, perspektivlər” mövzusunda keçirdiyi təlimin II günündə maraqlı faktlar səsləndirib. O qeyd edib ki, ötən il ölkəyə 3 tondan artıq narkotik maddələrin keçirilməsinin qarşısı alınıb. 2021-ci ildə ölkəmizə ümumi çəkisi 3 t 43 kq 507 qr olan narkotik maddələrin keçirilməsinin qarşısı alınıb. Məlumatda bildirilib ki, aşkar olunan narkotiklərin 2 t 106 kq 134 qramı heroin, 194 kq.122qramı - metamfetamin, 44 kq 672 qramı - həşiş, 698 kq 207 qramı - tiryək və digər növ narkotik vasitələr olub. O bildirib ki, narkotikin əsas keçirilmə yeri ölkəmizin cənub sərhəddidir. Bu işlərdə maarifləndirmə işlərinin əhəmiyyətindən danışan general-mayor media nümayəndələrini bu işdə daha da aktiv iştirak etməyə çağırıb.







Gömrük ödənişlərindən azadolmalara nəzarət şöbəsinin rəisi Faiq Orucov isə bildirib ki, 2021-ci ildə DGK-nin xətti ilə dövlət büdcəsinə proqnozlaşdırılan 3 milyard 900 milyon manata qarşı 4 milyard 342 milyon manat vəsait büdcəyə köçürülməklə proqnoza 111.4% faizə əməl edilib: ”Bu da nəzərdə tutulan proqnozdan 442 milyon manat artıq deməkdir. Ayrı-ayrı gömrük ödənişlərinə baxsaq, ƏDV üzrə 107%, gömrük rüsumları üzrə 126.9%, aksizlər üzrə 96% yol vergisi üzrə 109.1% proqnoz yerinə yetirilib. Yalnız aksiz vergisində azalma müşahidə edilmişdir ki, bu azalma tütün məhsulları üçün proqnozlaşdırlan aksiz vergisinin həcmində qeydə alınmışdır. Belə ki tütün məhsulları üzrə proqnozlaşdırlan həcmdə idxal əməliyyatı qeydə alınmamışdır”- deyə Faiq Orucov bildirib.

”İki günlük tədbir çərçivəsində biz gömrük sistemində aparılan islahatlar, onun nəticəsi və perspektivləri, gələcək islahatlar barəsində media nümayəndələrinə ətraflı məlumat verəcəyik”. Bu fikirləri də Medianın İnkişafı Agentliyi və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə kütləvi informasiya nümayəndələri üçün nəzərdə tutulan ”Gömrük sistemində islahatlar: nəticələr perspektivlər” mövzusunda keçirilən tədbir zamanı media nümayəndələrinə verdiyi müsahibəsində, Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Natiq Axundov səsləndirib.



Nadir Axundov daha sonra təlimin əsas məqsədinin sahəvi jurnalistikanın inkişafı ilə bağlı olduğunu vurğulayıb: ”Bu sahədə müəyyən formalaşdırmalar aparmaq istəyirik. Gömrük spesifik bir sahədir. Bu sahədə görülən işləri obyektiv və hərtərəfli işıqlandırmaq üçün sahəvi jurnalistikaya ehtiyac var. Ümidvarıq ki, bu tədbir gələcək jurnalistikanın inkişafına öz töhfəsini verəcək”.

O həmçinin bunun media nümayəndələri ilə 5-ci görüş olduğunu diqqətə çatdırıb: ”Bu dəfəki təlimin fərqi ondan ibarətdir ki, biz bu tədbiri Medianın İnkişafı Agentliyi ilə birgə təşkil etmişik. Verilən dəstəyə görə də onlara təşəkkür edirik”.

Təlim çərçivəsində jurnalistlərin Dövlət Gömrük Komitəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin ”Astara” gömrük postuna səfər edib.Səfər zamanı jurnalistlər gömrük sistemində tətbiq edilən yenilikləri əyani şəkildə müşahidə etmək imkanı əldə edib.

Lənkəran şəhərində Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə jurnalislər üçün ”Gömrük sistemində islahatlar: Nəticələr, perspektivlər” mövzusunda təlimlərin bağlanış mərasimi olub. Belə ki, bağlanış mərasimində MEDİA-nın icraçı direktorunun müavini Natiq Məmmədli, Dövlət Gömrük Komitəsinin Sədr-müavini İsmayıl Hüseynov iştirak ediblər.



Təlimlərin sonunda gömrük xidmətləri ilə bağlı suallar jurnalistlərə təqdim olunaraq test yoxlanışı keçirilib. Qalib gələn jurnalistlərə Dövlət Gömrük Komitəsi və Medianın İnkişafı Agentliyi tərəfindən mükafatlar təqdim olunub.

Həmçinin sonda bütün jurnalistlərə təlimdə iştiraka görə sertifikatlar verilib.

***Kəmalə Təyyarqızı***
***Foto: Fariz Faiqoğlu***

# Vaksinasiya virusun istənilən mutasiyası ilə mübarizədə ən effektiv vasitədir

## COVID-19 virusuna yoluxmuş şəxslərin təcrid müddəti 14 gündən 7 günə azaldılıb

**COVID-19 pandemiyası aşkarlanan zamandan bu günə kimi, bütün dünya olduğu kimi, Azərbaycan da bu virusla üz-üzədir. Hər bir vətəndaş virusa yoluxmanın geniş şəkildə yayılmasında, özünü və ailə üzvünü virusdan qorumaq üçün tövsiyə və tələb olunan qaydalara ciddi şəkildə əməl etməlidir. Pandemiya başlayandan bəri yanvarın 6-da qeydə alan antirekordda həmin vaxt 24 saat ərzində 2 741 367 yoluxma halı aşkar edilmişdisə artıq, yanvarın 20-da qeydə alınan məlumata əsasən, həmin gün 24 saat ərzində 3 933 319 yoluxma halı aşkar edilmişdi. Bu olduqca ciddi bir rəqəmdir.**

Bu gün dünyada koronavirusa təsdiqlənmiş yoluxma hallarının sayı 340 milyonu, ölüm hallarının sayı isə 5,57 milyonu keçib. Ən çox yoluxma halı - 68 199 861 ABŞ-da qeydə alınıb. Ondan sonra Hindistan, Braziliya, Böyük Britaniya, Fransa yer alıblar. Ölüm halına gəlincə isə yenə də ən çox - 852 334 ABŞ-da qeydə alınıb. Azərbaycanda isə koronavirus infeksiyasına 630 min 420 yoluxma halı qeydə alınıb, 8 min 581 nəfər həyatını itirib. Bu göstəricilər əlbəttə ki, ölkəmizdə pandemiya baş qaldıran ilk gündən belə dövət tərəfindən ardıcıl olaraq görülmüş tədbirlər nəticəsindədir.

Azərbaycanda COVID-19 koronavirus infeksiyasına ölkədə ilk yoluxma hadisəsi 2020-ci il fevralın 28-də qeydə alındı. Yoluxma həmin tarixdən bu günə qədər davam etməkdədir. Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə bütün zəruri, qabaqlayıcı addımlar atılıb. Bir müddət əvvəl ölkəmizdə bu virusa yoluxanların sayına ciddi dəyişikliklər - azalma müşahidə olunsa da, son günlər üç rəqəmi dörd rəqəmlər əvəz etməyə başlayıb. Əlbəttə ki, bu narahatlıq doğurmaya bilməz. Ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmada kəskin artım müşahidə olunmaqdadır.

### "OMİKRON" ŞTAMMININ "DELTA" İLƏ MÜQAYİSƏDƏ YAYILMA POTENSİALI DAHA ÇOXDUR

Son zamanlar dünya ölkələrində SARS-CoV-2 virusunun "omikron" ştamının yayılması halları müşahidə olunur. 2021-ci ilin sentyabr ayında həftə ərzində milyona yaxın yoluxma halı qeydə alınırdısa, 2022-ci ilin yanvar ayının əvvəlinə təsdiq edilmiş yoluxma hallarının sayı təxminən yeddi milyona qədər artdı. Bu statistik rəqəmlər hər şeyi demiş olur. Azərbaycanda ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrin 12-də yanvarın 10-da "omikron" variantı aşkarlandı. Yuxarıda qeyd etdiyimiz statistik rəqəmlər və göstəricilər "omikron"a yoluxan insanların sayında sürətli artımın olduğunu bir daha təsdiqləmiş olur. Ekspertlərin fikrincə, "delta" ilə müqayisədə "omikron"a yoluxmanın nəticələri daha yüngüldür. Onu da bir daha vurğulayaq ki, "omikron" "delta" ilə müqayisədə daha böyük yayılma potensialına malikdir. Bu baxımdan yoluxma hallarında sürətli artım xəstəxanalara yerləşdirmə hallarında artıma səbəb ola bilər.

### "DELTA"DA OLDUĞU KİMİ, "OMİKRON"DA DA PEYVƏND OLUNMAMIŞ İNSANLAR DAHA ÇOX ZƏRƏR ÇƏKƏCƏK

Bu gün ölkəmizdə yeni qaydalar tətbiq olunur. Beynəlxalq təcrübəni və mövcud elmi araşdırmaların nəticələrini nəzərə alaraq, SARS-CoV-2 PZR test nəticəsi "müsbət" olan şəxslərin və onların müəyyən olunmuş "sıx təmaslı"larının təcrid (karantin) müddəti ölkəmizdə 24 yanvar 2022-ci il tarixindən etibarən 14 gündən 7 günə azaldıldı. "Delta" variantında olduğu kimi, "omikron"da da peyvənd olunmamış insanlar daha çox zərər çəkəcək. Odur ki, vaksinasiya yoluxmanın ağır fəsadlarından, mümkün ölümdən hər kəsin özünün sığortalamasıdır. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə uğurla həyta keçirilir. Cənubi Qafqazda isə ilk olaraq Azərbaycan vaksinasiya işlərinə start verib. Xatırlatmaq yerinə düşər ki, ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlanıb və artıq bir il ötdü. Vaksinasiya 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində həyata keçirilir.

Əlbəttə ki, bu gün bir sıra dünya ölkələrində, eləcə də Azərbaycanda yeni aşkarlanan "omikron" ştamından qorunmaq üçün peyvəndlənmə yeganə çıxış yoludur. Mütəxəssilərin qənaətinə



əsasən, vaksinasiya virusun istənilən mutasiyası ilə mübarizədə ən effektiv vasitə olaraq qalır. Vətəndaşlarımız gücləndirici "buster" doza ilə vaksin olunmalıdır. Bununla yanaşı, maska taxmaq, əllərin yuyulması və ya antiseptik vasitələrdən istifadə, fiziki məsafənin saxlanılması, insanların sıx toplaşdığı yerlərdən uzaq durmaq, təcrid olunan yerlərin tez-tez havalandırılması və s. qaydalara, tövsiyələrə əməl edilməsi vacib hesab olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

GEOSİYASƏT+AKTUAL

# Rusiyanın Ukraynaya mümkün müdaxiləsi: Cənubi Qafqaza təsirləri varmı?

Rusiya ilə Ukrayna arasında mümkün müharibənin başlaması ehtimalı artmaqda davam edir. Artıq belə bir situasiyada aparılan analizlər və gəlinən nəticələr də həmin reallığı ehtiva etməyə başlayıb. Bir müddət əvvəl müharibənin olmayacağı ilə bağlı səslənən fikirlər arxa plana keçir, əsasən də hərbi əməliyyatlar başlayarsa növbəti hadisələrin necə cərəyan edəcəyi ətrafında müxtəlif mülahizələr səsləndirilir. Lakin onu da qeyd etmək olar ki, hətta Rusiya müharibəni başlamaq fikrində deyilsə və sadəcə əzələ nümayişi göstərərək siyasi blef edirsə, etiraf etmək olar ki, həmin blef alınıb...

### ABŞ və NATO faktoru

Ancaq bu qarşıdurmaların təməlində ABŞ-Rusiya kəskin münasibətlərinin dayandığı da kimsəyə sirr deyil. Bu baxımdan, ABŞ-ın da geriyə çəkilmək fikrinin olmadığı göz önündədir. Hətta ABŞ-ın NATO-dakı Avropa müttəfiqləri arasında ciddi fikir ayrılıqlarının olmasına rəğmən, Vaşinqton hər vəchlə nəzarəti öz əlində saxlamağa cəhdlər göstərir. Bu, həm də belə deməyə zəmin yaradır ki, ABŞ Rusiyaya "təhlükəsizlik zəmanəti" vermək fikrindən çox uzaqdadır. Sadəcə, minimal şəkildə aralıq razılaşmaları əldə edilə bilər ki, o da necə deyərlər, ipdən asılı vəziyyətdə qalacaq. Ona görə də müharibənin qaçınılmazlığı barədə hər kəs danışmağa başlayıb və əbəs deyil ki, Amerika prezidenti Co Bayden də öz çıxışlarının birində sətiraltı qaydada silahlı qarşıdurmanın lokallaşmasının vacibliyi barədə danışıb.

Cənubi Qafqazda arzuolunmaz problemlərin yaranacağı mümkündürmü?

Və bu gün təbii olaraq sözügedən qarşıdurmanın postsovet ölkələrinə necə təsir edəcəyi ilə bağlı da suallar yaranmağa başlayıb, daha dəqiq desək bu gün də həssas məkan olan Cənubi Qafqaz faktoru yeni suallar yaradır.

Qeyd etmək olar ki, Ukraynda ehtimal edilən müharibə ssenarisi məhz Azərbaycan üçün arzuedilən deyil. Çünki savaş açılarsa, bu, bütün spektorlar üzrə təsirlərini göstərə bilər. Misal üçün, Avropanın təhlükəsizliyi sistemində çat yaranar, çətinliklə ərsəyə gətirilən Rusiya-Türkiyə münasibətlərində yenidən gərginliklər əmələ gələ bilər, Qara dəniz hövzəsində də ziddiyyət ehtimalları artar və əgər Gürcüstanın ərazisi Rusiyaya qarşı istifadə edilərsə bu zaman savaş meydanı Cənubi Qafqaza qədər genişlənər. Üstəlik, Rusiya SWIFT faktorundan kənarlaşdırılarsa bu, Rusiya ilə ticarət dövriyyəsinə də öz arzuolunmaz təsirlərini göstərər və bu kimi digər çoxsaylı problemlərin yaranacağı isə an məsələsidir...

### Bakı bütün bu kimi ssenariləri də əvvəlcədən nəzərə almışdı

Beləliklə, mövcud olan təhlükə ehtimalları Cənubi Qafqazın, o cümlədən regionda əsas söz sahiblərindən olan Azərbaycanın strateji və iqtisadi maraqlarına müəyyən mənada öz mənfi təsirlərini yarada bilər. Məlumdur ki, Azərbaycan 2020-ci ilin payızında öz problemini hərbi yolla həll etdi. Prezident İlham Əliyev bunun üçün ən mükəmməl vaxt seçmişdi və həyata keçirilən bir sıra uğurlu hərbi konsepsiyalar öz təsdiqini 44 gün içində qazanılan qələbəsi ilə tapmış oldu. Artıq bu məsələdə Bakı öz strateji təşəbbüsə malikdir. Lakin sülh razılaşmasının olmaması və Ermənistanla müəyyən olunmamış sərhədlərdə zaman-zaman yaşanan qarşıdurmalar əlbəttə ki, təhlükənin tam sovuşmadığını nümayiş etdirir.

Bəli, Bakı bütün bu kimi ssenariləri də əvvəlcədən nəzərə almışdı və bu səbəbdən də perventiv, vacib qərarlarını verdi, ilkin addımları ilə yaşana biləcək istənilən təhdidlərin qarşısını alan münbit siyasi gedişlərini etdi.

### Azərbaycanın hərbi-strateji partnyorları və hərbi qüdrətinin artırılması amili



Əgər bu gün KTMT-də ciddi deqradasiya mövcuddursa, Azərbaycan daha müfəssəl hərbi birlik bəyannaməsi ilə öz mövqeyini gücləndirdi - qardaş Türkiyə ilə Şuşa Bəyannaməsi imzalandı. Və Türikiyə NTO-nin Avropa ölkələri arasındakı ən fəal, ən güclü orduları sırasında liderlik mövqeyini qoruyub-saxlayır. Bu da son deyil...

Azərbaycan qardaş ölkə Pakistanla strateji və hərbi əməkdaşlıq planlarını möhkəmləndirir və İslamabad nüvə silahına malik olması ilə yanaşı, rəsmi şəkildə bəyan edib ki, bütün hallarda öz varlığı ilə qardaş Azərbaycanın yanındadır. İsraillə münasibətlər konteksti ilə bağlı isə yəqin ki, xatırlatmalar etməyə dəyməz. Artıq bu ölkə ilə Azərbaycan arasındakı sıx əməkdaşlıq sferası hərbi sahədə olmaqla yanaşı, digər əhəmiyyətli sahələri də ehtiva etməkdədir. Və təbii ki, Azərbaycan Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi öz hərbi qüdrətini daha da artırmaqdadır.

### Həm Türkiyə, həm də Azərbaycan ekzistensional təhlükələri nəzərə alıblar

Bütün bunları nəzərə alsaq deyə bilərik ki, Azərbaycanın əsas hədəflərindən biri Cənubi Qafqazın ərazisini, əsasən də Gürcüstanın ərazilərini mümkün Rusiya-Ukrayna savaşından kənar tutmaqdan ibarətdir. Yəni müharibə olarsa cəbhənin Cənubi Qafqaza doğru genişlənməsinə qətiyyən imkan vermək olmaz. Bunun isə səbəbləri var. Əgər müharibə Ukraynadan Gürcüstanın ərazisinə tərəf genişlənərək, onda Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz regionunu fiziki olaraq Mərkəzi Asiyadan və Avropadan ayıra bilər. Rusiya Ukrayna üzərində qələbə əldə edərsə bütün yollar məhz Rusiyanın nəzarətində olacq. Daha dəqiq desək, Rusiya postsovet məkanındakı öz təhlükəsizliyinə məhz özü də zəmanət verəcək.

Burada Türkiyə ilə Azərbaycanın rolları öz vacibliyini qoruyub-saxlayır. Əgər Rusiya öz təhlükəsizliyinə zəmanət verəcəksə Ankara və Bakı da lokal təhlükəsizlik sistemi ilə bağlı öz tələblərini irəli sürə bilərlər. Əks halda, yəni həmin zəmanət alınmazsa həm Türkiyə, həm də Azərbaycan ekzistensional təhlükəni nəzərə almaqla Gürcüstanın ərazisindən keçən strateji və iqtisadi infrastrukturlarının təhlükəsizliklərini təmin etmək üçün daha sərt metodlara əl atmağa məcbur olacaqlar. O cümlədən, Zəngəzur dəhlizinin açıması prosesində də sərt adımlara gedilə bilər. Belə ki, Ermənistanla sülh razılaşmasının olmaması Azərbaycana yeni imkanlar yaradır və hətta Azərbaycan Demokratik Respublikasının sərhədlərinin də tarixi bərpasına imkanlar verir, hansı ki, ADR müasir Azərbaycan Respublikasının tarixi və inkarolunmaz sələfidir.

***Rövşən RƏSULOV***

# Ərzaq təhlükəsizliyi əhalinin sosial təminatının əsasıdır

## İlham Əliyev: "Biz gərək ərzaq təhlükəsizliyinə düşünülmüş şəkildə yanaşaq"

"Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq-qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxarıla biləcək məhsullara da diqqət yetirilməlidir". "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 104-cü kitabında yer alan bu fikirlər dövlətimizin başçısının Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş videoformatda iclası zamanı söylədiyi nitqindən götürülüb.

### Hökumətə qiymət artımı ilə bağlı tapşırıq: Antiinflyasiya tədbirlər planı hazırlanır

Dünya iqtisadiyyatı pandemiyanın təsiri ilə geriləmələr və artan inflyasiya təzyiqləri ilə üz-üzədir. Azərbaycan ötən ili yüksək iqtisadi nəticələrlə başa vursa da, qlobal tendensiyaların təsiri qaçılmaz olur. Lakin bu təsiri azaltmaq, konkret olaraq inflyasiyanın qarşısını almaq üçün anti-infilyasiya tədbirlərinə start verilir. Yanvarın 18-də Nazirlər Kabineti tərəfindən müvafiq qurumlara bu istiqamətdə tədbirlər planının hazırlanması tapşırılmışdı. Artıq məsələ ilə bağlı yaradılan işçi qrupun ilk iclası keçirilib. İki həftə ərzində antiinflyasiya tədbirlər planının ilkin layihəsinin hökumətə təqdim ediləcəyi gözlənilir. Ərzaq məhsullarının qiymətinin yüksəlməsi ölkə daxilində strateji ərzaq məhsullarının istehsalının genişləndirilməsini, yeni strateji məhsulların idxalının daxili istehsalla əvəzlənməsini zəruri edir. Qlobal səviyyədə müşahidə edilən və yaxın gələcəklə bağlı proqnozlarda daha da yüksəlməsi gözlənilən inflyasiya risklərinin ölkəmizə təsirinin azalması üçün hökumət anti-inflyasiya tədbirlərinə başlayır.

### Dövlət ərzaq təhlükəsizliyinin təminatı istiqamətində nə mümkündürsə edir

Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən siyasi, iqtisadi və sosial məsələlər, o cümlədən ərzaq təhlükəsizliyi və aqrar sektordakı vəziyyət, həmçinin perspektivlər haqqında geniş fikirlər söylədi. Və bildirdi ki, bu, ən vacib məsələlərdən biridir: "Bu məsələ ilə bağlı mən uzun illər fəaliyyət göstərirəm və hökumətə dəfələrlə tapşırıqlar vermişəm. Biz imkan daxilində bu məsələnin həlli ilə bağlı hesab edirəm ki, lazımi addımları atırıq. Amma biz reallığı nəzərə almalıyıq. Azərbaycanda adambaşına düşən torpaq sahəsi qonşu ölkələrə və bir çox ölkələrə nisbətdə daha azdır. Nəzərə alsaq ki, uzun illər ərazimizin təxminən 20 faizi işğal altında idi, nəzərə alsaq ki, ərazimizin bir hissəsi iqlimə görə, torpağın keyfiyyətinə görə kənd təsərrüfatı üçün yararsızdır, əlbəttə, bu, bizim işimizi çətinləşdirir. Yəni bu, reallıqdır və biz bu reallıqdan kənara çıxa bilmərik. Yəni, bu, bizim coğrafi vəziyyətimizdir".

Dövlət başçısı müsahibəsi zamanı sovet dövrü ilə bugünkü vəziyyəti müqayisə edərək bildirdi ki, o vaxt Sovet İttifaqında vahid kənd təsərrüfatı və xalq təsərrüfatı kompleksi var idi, bölgü aparılırdı: "O vaxt biz özümüzü, ümumiyyətlə, bu əsas ərzaq məhsulları ilə təmin edə bilmirdik. Ona görə bizim qarşımızda iki vəzifə dayanmışdı. Birincisi, ərzaq təhlükəsizliyini maksimum dərəcədə təmin etmək ki, özümüzü kənarda başqa ölkələrdə yaranmış böhrandan sığortalayaq. İkincisi, ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirmək ki, həm məşğulluğu, eyni zamanda, yerli istehsalı və ixracı artıraq. Ona görə bu gün də bu vəzifə gündəlikdədir. Ənənəvi kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə fikir versək, deyə bilərəm ki, son 15 il ərzində meyvə istehsalı Azərbaycanda 2 dəfə artıb. İki dəfə, yəni, çox böyük rəqəmdir. Üzüm istehsalı da, həmçinin 2 dəfə artıb, tərəvəz istehsalı artıb. Pambıq istehsalı dəfələrlə artıb. Demək olar ki, biz son beş il ərzində pambıqçılığı diriltdik və qeyri-neft ixracatında pambığın nisbəti ildən-ilə artır. Eyni zamanda, biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etmək üçün praktiki addımlar atdıq. Məsələn, bu gün mal ətinə əgər baxsaq, biz özümüzü təqribən 90 faiz səviyyəsində təmin edirik, qoyun əti ilə 100 faiz. Azərbaycan heç vaxt süd istehsal etmirdi və bizdə ənənəvi olaraq malqaranın cinsi südçülük üçün əlverişli deyildi. Ona görə biz cins mal-qaranın alınmasına böyük vəsait xərclədik və bu gün Azərbaycanda əgər 1 milyondan çox iribuynuzlu mal-qara varsa, onun artıq 70 mini cins malqaradır. Son illər ərzində gətirdiyimiz və Azərbaycanda müəyyən tədbirlərin nəticəsində yetişdirilmiş cins mal-qaradır ki, bir neçə ildən sonra onların, əlbəttə, sayı artacaq. Ona görə məsələn, süd və süd məhsullarının istehsalında biz 80 faizə çıxa bilmişik. Həmçinin toyuq əti istehsalında da 80 faizə çıxa bilmişik. Yəni heç vaxt tarixdə - sovet dövründə və müstəqillik dövründə bu rəqəmlərə biz çıxmamışıq".



### "Biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüz-özümüzü təmin etməliyik, mən buna inanıram"

Prezident İlham Əliyev ölkənin taxıla olan tələbatın ödənilməsinə böyük önəm verdiyini bildirərək demişdir: "Ona görə bu real mənzərədir. Bizim istəyimizlə imkanlarımız bu gün üst-üstə düşmür. Ona görə hər kəs bu real vəziyyəti görməlidir və nə mümkünsə biz edirik. Mən demək olar ki, gündəlik formatda bu işlə məşğul oluram. Ümid edirəm ki, ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq. Hər halda biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik, mən buna inanıram". Göründüyü kimi, Azərbaycanda ərzaq məhsullarının bahalaşması prosesinə qlobal iqtisadiyyatda gedən proseslərin məntiqi nəticəsi kimi baxmaq lazımdır. Çünki ərzaq qiymətlərinin artımı problemi ilə dünyanın demək olar ki, bütün ölkələri üzləşib və Azərbaycan da istisna olmayıb. Həmçinin, Azərbaycan ərzaq təhlükəsizliyi və ərzaq təminatının formalaşmasına xüsusi önəm verən ölkələrdəndir. Bu baxımdan növbəti illərdə də ərzaq təhlükəsizliyinin formalaşması Azərbaycan üçün prioritetliyini qoruyub saxlayacaq və biz daha çox istehlakın, tələbin yerli istehsal hesabına ödənilməsini müşahidə edəcəyik.

*RƏFİQƏ KAMALQIZI*




## "İşğaldan azad olunmuş ərazilərə gedənlərin sayı durmadan artır"

"Rəqəmsal inkişaf və nəqliyyat nazirliyi yanında dövlət avtomobil nəqliyyatı tərəfindən 24 yanvar tarixindən etibarən işğaldan azad edilmiş ərazilərimizə ilkin müntəzəm marşurut xətləri həyata keçirilir. Qeyd etmək istərdim ki, Bakı-Şuşa-Bakı, Bakı-Ağdam-Bakı, Əhmədbəyli-Şuşa-Əhmədbəyli, Bərdə-Ağdam-Bərdə istiqamətində reyslər fəaliyyət göstərir". Bu sözləri SİA-ya açıqlamasında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəsmisi Günay Əliyeva bildirib.

Onun sözlərinə görə, reyslər Əhmədbəyli-Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə isə 2 dəfə olmaqla təşkil edilir: "Füzuli Beynəlxalq Hava Limanı-Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareysləri ilə uzlaşdırılacaq. Bakı-Şuşa-Bakı biletinin bir istiqamətə olan qiyməti 10,4 manat, Bakı-Ağdam-Bakı biletinin bir istiqamətdə qiyməti 9,4 manat, Əhmədbəyli-Şuşa-Əhmədbəyli (express) biletinin bir istiqamətdə qiyməti 7 manat, Bərdə-Ağdam-Bərdə (express) biletinin bir istiqamətdə qiyməti 5 manat, Füzuli BHL-Şuşa (express) biletinin bir istiqamətə qiyməti isə 6 manat təşkil edir.

Bakı-Şuşa-Bakı istiqamətində artıq biletlər fevral ayının 2-nə kimi satılmışdır. Dünən ki, səfərdə Bakı-Şuşa-Bakı üzrə 47, Bakı-Ağdam-Bakı üzrə isə 43 yer dolmuşdu. Avtobuslar konkret marşrut üzrə hərəkət edəcək. İşğaldan azad olunan ərazilərə səyahət etmək istəyənlər biletləri elektron qaydada "yolumuzqarabaga.az" saytından əldə edə bilərlər".

***Banuçiçək Hüseynli***

## Azyaşlı uşaqların narkotik aludəçisinə çevrilməsinin səbəbi nədir?

"Son dövrlər uşaqlar arasında narkotik qurbanı olan, narkotik aludəçisi olan yeniyetmələrin, gənclərin sayı günü-gündən artır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Rəşad Əsgərov deyib.

Onun sözlərinə görə, aydın məsələdir ki, uşaqların bu yola düşməsində birinci növbədə uşaqların valideyni günahkardır: "Uşaq valideyn tərəfindən nəzarətsiz qaldığı halda və yaxud da bilərəkdən valideyn tərəfindən bu yola yönləndirərək narkotik vasitə aduləçiliyinə və yaxud da narkotik qurbanına çevrilə bilir. Adətən uşaqların bu yola yönləndirilməsində valideynlərin rolu ona görə mühüm əhəmiyyət kəsb edir ki, valideynin özü də narkotik aludəçisidir.



İkinci bir tərəfdən bəzi uşaqlar var ki, hansı ki, valideynləri onları atıb və yaxud da kimsəsiz böyüməyə məhkum olurlar. Bu cür böyüyən uşaqların çoxu bu yola əl atırlar. Son zamanlar Azərbaycanda narkotikdən əziyyət çəkən uşaqların sayında əvvəlki illərin faiz göstəricilərinə əsasən artım müşahidə olunur. İkinci tərəfdən bu tipdən olan uşaqlar narkotik aludəçiliyindən əziyyət çəkərkən onları xəstəxanalara yerləşdirirlər. Adətən narko asılılığa düşmüş uşaqlardan dolayı yolla gizli biznes qurmağa çalışan insanlar istifadə edirlər. Bu xüsusilə narkobaronlar, narkotacirlərin əlində bir vasitəyə çevrilir. Bunun da nəticəsində həmin tipdən olan uşaqlar cinayətkarlıq hallarının yaranmasında iştirak etmiş olurlar. Yaxşı olardı ki, bu kimi problemlərin aradan qaldırılması üçün həm ailələrdə, həm orta ümumtəhsil müəssisələrində diqqətə saxlanılsın. Əgər bu alınmırsa aidiyyatı qurumlar bu uşaqları nəzarətə götürməlidir. Bu işlər mütəmadi, ardıcıl şəkildə görünərsə, bu tipdən olan uşaqların problemlərini həll etmək mümkün ola bilər".

***Arzu Qurbanzadə***

# 2022-ci ilin ilk premyerası

## Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində "Bir Xəzər əfsanəsi" baleti oynanılacaq

Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq namizədi, əməkdar müəllim, beynəlxalq müsabiqələr laureatı Lalə Cəfərova çağdaş musiqimizdə imzası olan, akademik əsərləri ilə ölkəmizdə, eləcə də dünya ölkələrində tanınan bir bəstəkar kimi dəsti-xəttini, imzasını musiqi dünyamıza həkk edib. Çağdaş musiqimizdə klassik ənənələri yaşatmaq və bu günün zövqlü musiqisevərlərinə mükəmməl əsərlər təqdim etmək böyük zəhmət və istedad tələb edir ki, Lalə xanım da onilliklərdir ki, professional musiqimizin inkişafına öz töhfələrini verir. Uşaqlıqdan musiqi dünyasına qədəm qoyan musiqiçinin qəlbinin hökmü əsərlərində özünü büruzə verir. Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda fortepiano sinfini bitirdikdən sonra Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının iki ixtisas üzrə fortepiano və bəstəkarlıq fakültələrini, daha sonra isə bəstəkarlığın aspiranturasını fərqlənmə diplomları ilə bitirib. Peşəkar musiqiçi kimi fəaliyyətdə olduğu zaman məsafəsində məqsədyönlü fəaliyyəti nəticəsində Lalə xanım uğura aparan bir-birindən fərqli janrda olan əsərləri ilə böyük konsert salonlarına yol açdı. Azərbaycanın, eləcə də dünyanın bir çox ölkələrinin konsert salonlarında Lalə xanımın akademik əsərlərinin sədası eşidildi. Alqış alqışı əvəzlədi. Sənətkar üçün bundan qiymətli, dəyərli nə ola bilər ki? Simfonik əsərlərin, fortepiano və simfonik orkestr üçün 2 konsertin, simfonik süitaların, vokal, xor əsərlərinin, kamera instrumental və caz əsərlərinin, bədii-dokumental filmlərin musiqisinin, bir çox mahnıların və 5 dərs vəsaitinin müəllifi olan Lalə xanım yorulmaq bilmədən musiqi dünyasında yeni-yeni zirvələr fəth etdi. Zamanın ahəngində klassik ruhu yaşatdı.

Lalə xanım musiqi əsərlərinin ifasını dinləməklə ən böyük rahatlığına nail olur, mənəvi rahatlığını bu dünyada - ömrünü həsr etdiyi və sevərək bağlandığı musiqi dünyasında tapır. Əlbəttə ki, bu uğurlar asan və hamar yollardan keçməyib. Mütaliə, yaratmaq, üzərində çalışmaq, ustad sənətkarların yaradıcılığını öyrənmək və böyük konsert salonlarında, bəzən də kiçik bir məkanda klassik əsərləri dinləmək və onları həzz etmək, daxilən duymaq, analiz etmək, eləcə də böyük bir salonda konsert vermək həyəcanı və s. böyük bəstəkarın sənət yolunda cığırlar açıb. Bəstəkarın portret cizgilərini üzə çıxaran məsuliyyət və tələbkarlıq onun yaradıcılıq kredosuna daha da yaxınlaşdırır. Əsərləri Azərbaycan Bəstəkarlarının Antologiyasına daxil edilib. Respublika və beynəlxalq konfranslarda elmi məqalələri ilə çıxışlar edib. Yaşadığı ömrün hər bir ilinə bir müvəffəqiyyət yazılıb. 2001-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının, Gənclər və İdman Nazirliyinin təqdimatı ilə simfonik əsər nominasiyası üzrə ”İlin ən yaxşı bəstəkarı” mükafatına layiq görülüb. Dəfələrlə Bəstəkarlar İttifaqında keçirilən





müxtəlif bəstəkarlıq müsabiqələrinin qalibi olub. ”Tar və simfonik orkestr üçün rəqslər”lə və simfonik orkestr üçün ”Bu gecə” romansı Azad Əliyevin dirijorluğu ilə Azərbaycan Televiziyası və Radiosunun Simfonik orkestrinin ifasında lentə yazılıb. 2002-ci il, 2 avqust tarixində Ümummilli Liderimiz Heydər Əliyevin Sərəncamı ilə keçirilən ”Azərbaycan Sərhəd qoşunları bu gün” adlı müsabiqəsinə təqdim etdiyi solist, nəfəs alətləri orkestri və xor üçün ”Sərhədçi” marşına görə diplom və mükafata layiq görülüb. VI Qəbələ Beynəlxalq Musiqi Festivalında fortepiano və simfonik orkestr uçun bəstələdiyi 2 saylı konsertini (atasının əziz xatirəsinə həsr etdiyi) ifa edib. Əsərləri mütamadi olaraq, dünyanın məşhur bəstəkarları ilə yanaşı, ABŞ-da ifa olunub. Lalə Cəfərovanın əsərləri müxtəlif səhnələrdə böyük uğurla səslənir və bir çox mükafatlara layiq görülüb. 2006-cı ildə Azərbaycan Yazıçılar Birliyi, ”Belçika Azərbaycan evi” və ”Avropa xəbər qəzeti” nin mahnı müsabiqəsinə təqdim etdiyi ”Bakı-Tbilisi-Ceyhan” mahnısına görə I mükafata layiq görülüb. ABŞ da Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş konsertdə əsərləri ifa olunub.

2018-ci ildə Türkiyədə keçirilən Beynəlxalq müsabiqədə bəstəkarlıq nominasiyası üzrə Qran Piri diplomu qazanıb. 2019-cu ildə ”Yarat” Mərkəzində ”Musiqinin sehri” adlı estrada və caz əsərlərindən ibarət müəllif konserti təşkil olunub.

Lalə xanımın yaradıcılığından söz açarkən, onun filmlərə yazdığı musiqi əsərlərini də qeyd etməliyik. O ”Qafqazın bu üzündə” sənədli filminə musiqi bəstələyib. (Bir saatlıq film Qarabağda baş verən hadisələrdən bəhs olunur). Xatırladaq ki, 2004-cü ildə bəstəkar ”Qız qalası” sənədli filminə musiqi yazmış və həmin film dünyanın müxtəlif ölkələrinə müsabiqəyə göndərilmişdir. 2021-ci il 2 noyabrda ”Zəfər günü”nə həsr olunmuş ”Qarabağ Azərbaycandır” konsertində onun bəstələdiyi ”Zəfər Marşı” Heydər Əliyev Sarayında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestri, Xor Kapellası və solist - Fəxri Kazım Nicatın ifasında uğurla səslənmişdir. Əsər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə həsr olunmuşdur. Əlbəttə ki, Lalə xanım bəstəkarlıq fəaliyyəti ilə yanaşı, 30 ildir ki, pedaqoq kimi də çalışır. O, bu illər ərzində nəfəs və zərb alətləri kafedrasında partitura qiraəti, orkestrləşdirmə, nəfəs və zərb alətləri ifaçılıq sənətinin tarixi və müasir istiqamətləri fənnlərindən dərs deyir. 30 illik pedoqoji fəaliyyəti ərzində yetişdirdiyi tələbələri, hazırda respublikanın müxtəlif musiqi müəssisələrində fəaliyyət göstərirlər və fəxri adlarla təltif olunublar.

Bu gün Lalə Cəfərova yaradıcılının ən yüksək nöqtəsindədir. Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının səhnəsində Lalə xanımın ”Bir Xəzər əfsanəsi” baleti tamaşaya qoyulur. Belə ki, 30 yanvar tarixində baletin premyerası keçiriləcək. İncəsənətin ən maraqlı sahələrindən olan baletə bəstəkarın müraciət etməsi, əlbəttə ki, onun geniş yaradıcılıq imkanlarına malik olmasının göstəricisidir. Tamaşa maraqlı süjet əsasında qurulub. Akademik əsərlər müəllifinə uğurlar arzulayır, sənət sevincinin davamlı olmasını diləyirik.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Armen Sarkisyanın istefası Ermənistanda siyasi gərginliyi artıracaq

*Erməni ekspertləri müxtəlif proqnozlarla çıxış edirlər*

Ermənistanın prezidenti Armen Sarkisyanın istefası məsələsi gündəmə gəldikdən sonra ölkə daxilində bir sıra mülahizələr və fikirlər səslənməkdədir. Belə ki, Armen Sarkisyanın istefasının səbəbi kimi onun səlahiyyətlərinin olmaması əsas gətirilsə də, digər iddialar da ortaya atılır və prosesin get-gedə növbəti siyasi böhrana səbəb olması ətrafında müxtəlif proqnozlar verilir.



### Boris Navasardyana görə, Armen Sarkisyanın fəaliyyəti Nikol Paşinyan tərəfindən qısqanclıqla qarşılanıb

SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, maraqlı iddialardan biri də 24 TV-nin ”İntevyu” proqramına müsahibə verən Boris Navasardyan tərəfindən irəli sürülüb. İrəvan mətbuat-lubunun sədri bildirib ki, Londonda Sarkisyanlar ailəsinin toplantısı keçirilib və qərara gəlinib ki, Armen Sarkisyan səmərəsiz işlə məşğul olmasın.

Onun sözlərinə görə, Ermənistanın prezidenti özünü yad hiss edib və eyni zamanda, heç bir ideyasını həyata keçirə bilməyib. O cümlədən, onun fəallığı mövcud hakimiyyət tərəfindən qısqanclıqla qarşılanıb.

Navasardyan ehtimal edib ki, Armen Sarkisyan fəaliyyətinin son dövrlərində bir sıra ərəb ölkələri ilə razılaşmalara nail olmuşdu, lakin onun əldə etdikləri İrəvanda lazımi şəkildə diqqətə alınmayıb.

### Edmon Marukyan, Aram Sarkisyan, yoxsa Levon Ter-Petrosyan?

Siyasi analitik Armen Baqdasaryan isə fakt-info-ya açıqlamasında bildirib ki, ölkədə yaxın günlərdə elə proseslər baş verəcək ki, bu proseslər öz ciddiliyi ilə seçiləcək. Belə ki, Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətləri çərçivəsində bir sıra məsələlərin müzakirələri gözlənilir Bu baxımdan, Armen Sarkisyan həmin məsələlərdə məsuliyyət daşımaq istəməyib.

Baqdasaryan əlavə edib ki, əgər prezident istefası ilə bağlı yazdığı ərizəsini bir həftəlik müddətdə geri götürməzsə, onun istefası rəsmiləşəcək və parlamentin sədri onu imzalayacaq. Hətta Armen Sarkisyanı əvəzləyəcək şəxslər barədə də bəzi məlumatlar səslənməkdədir. Onların arasında ”Maarifçi Ermənistan” partiyasının lideri Edmon Marukyanın, ”Respublika” partiyasının sədri Aram Sarkisyanın və Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın da adları da var.

Ekspert Edmon Marukyanı ciddi namizəd kimi görməsə də, Levon Ter-Petrosyanın namizədliyini istisna etmir.

### Armen Baqdasaryan: ”Nikol Paşinyan həmin postda onun sözünə baxa biləcək yaxın ətrafındakıları görməyi arzu edir”

”Birincisi, Levon Ter-Petrosyana təklifin ediləcəyini istisna etmirəm. Bu təklif edilərsə o razı olmayacaq. Aram Sarkisyana gəldikdə isə bu barədə də nə isə deyə bilmərəm. İstənilən halda Nikol Paşinyan həmin postda onun sözünə baxa biləcək yaxın ətrafındakıları görməyi arzu edir”, deyə Armen Baqdasaryan bildirib. Erməni eksperti proseslərin fonunda ölkədə yeni siyasi gərginliyin yaşana biləcəyini proqnozlaşdırıb.

*Rövşən RƏSULOV*

# HƏRBİ EKSPERT: “Ermənistan heç bir zaman beynəlxalq hüquqa əməl etməyib”

**“Ermənistan heç bir zaman beynəlxalq hüquqa əməl etməyib. Razılaşmaları hər zaman pozub, indi də pozmağa çalışır”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib.**

Onun sözlərinə görə, 2020-ci ilin Vətən müharibəsindən sonra hər kəs düşünürdü ki, onlar ağıllarını başına yığarlar: ”O qədər zərbə aldılar, orduları məhv olub, iqtisadiyyatı çöküb. Böyük böhran yaşayıb, amma onlar bundan nəticə çıxartmadılar. Görünür dəmir yumruq yenə başlarına dəyməlidir. Ümumiyyətlə bu məsələ aydınlığa çıxmalıdır ki, ermənilər Türkmənçay müqaviləsindən sonra 2 əsrdir bura köçürülüb. Həmin dövrlər ərzində sakit durduqları vaxt olmayıb. Ancaq cinayətlər, soyqırım, separatizm, terror işğalçılıq fəaliyyəti ilə məşğul olmuşlar.

Düşünürəm ki, onlar birdəfəlik buradan köçürülüb getməlidir. Ya da ki, onlar Azərbaycanın müstəqilliyini tanıyıb, Türkiyədə ərazi iddialarından əl çəkib, saxta soyqırım iddialarından əl çəkib yaşamalıdırlar. Yox əgər bunlara əməl etməyəcəksə başqa alternativ variant qalmır. Bunları dəstəkləyən Amerika istəyirsə böyük ərazisi var ora yerləşdirsin. Rusiyanın həmçinin çox böyük ərazisi var əhalisi də azdır. İstəyirsə orada ermənilərə muxtariyyət verib yaşatsın. Yaxud da ki Fransa öz ölkəsinə aparsın. Başqa bunun alternativi görünmür.

Azərbaycan 2 əsrdir ki, bunları bağışlayır, onlar isə hər dəfə bu hadisələri davam etdirirlər. Ən yaxşı variant Ermənistanın özünün muxtar respublika olaraq Azərbaycanın tərkibində olmasıdır. Göyçə və Zəngəzuru qaytarıb İrəvanın ərazisində 9000 km/kv muxtariyyət olub Azərbaycanın tərkibində yaşamalıdır. Çünki ermənilər müstəqil dövlət kimi yaşaya bilmirlər. Xarici dairələrdən asılıdırlar. Asılı olaraq da bizə problemlər yaradırlar. Bu məsələ gec-tez açıq müzakirə olunacaq. Çünki başqa seçim yoxdur”.

*Abutel İlhamqızı*

# Dmitri Solonnikov:
## “Koçaryanın və Sarkisyanın yenidən prezident olmaq şansı yoxdur”

***Xəbər verildiyi kimi, Ermənistan prezidenti Armen Sarkisyan Ermənistan prezidenti vəzifəsindən istefa verib. Ermənistan mətbuatının yazdığına görə, Sarkisyan Ermənistan prezidenti postundan istefa verməsinin əsas arqumentinin onun daxili və xarici siyasətə təsir alətlərinin olmaması ilə bağlı olduğunu bildirib.***

Rusiya Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov ”Caliber” analitik mərkəzinə müsahibəsində Ermənistan prezidentinin istefasının mümkün səbəbləri və potensial namizədlərin şansları ilə bağlı fikirlərini bölüşüb. Analitikin şərhini oxucularımızın diqqətinə çatdırırıq.





- Armen Sarkisyanın istefasını bir neçə aspektdən nəzərdən keçirmək olar. Onun əsas arqumenti dövlətin siyasətinə real təsir göstərmək üçün kifayət qədər səlahiyyətlərin olmamasıdır və bununla razılaşmaq olmaz. Doğrudan da, 2017-ci ildə keçirilən referendumdan sonra Ermənistanda prezidentin səlahiyyətləri ciddi şəkildə məhdudlaşdırılıb və hətta Britaniya kraliçası belə hökmranlıq edir, lakin idarə etmir. Ermənistanda isə o, nə hökmranlıq etmir, nə də idarə edir. Bəli, bu, çox rəsmi bir formal mövqedir.

Amma Armen Sarkisyan 4 il əvvəl bu vəzifəyə gələndə buna razılıq vermişdi. O, nə ilə məşğul olduğunu bilirdi və bütün bu illər ona hər şey uyğun gəlirdi. İndi o, uyğun gəlməyi dayandırıb. Sual olunur - niyə? Məncə, burada fərqli səbəblər var. Bir tərəfdən, ola bilsin ki, onun siyasi ambisiyaları var və Ermənistanda özünün müstəqil güc mərkəzi yaratmaq istəyir.

Gücün mərkəzi nədir? Burada çox maraqlı bir məqam var. Armen Sarkisyan heç vaxt gizlətməyib ki, o, kifayət qədər ”britaniyalı” siyasətçidir, uzun müddət Britaniyada yaşayıb, övladları orada təhsil alıb, ingilis isteblişmenti ilə əla münasibətləri var. Əgər Ermənistanda yeni güc mərkəzinin formalaşmasından danışırıqsa, o zaman o öz ətrafında qüvvələri birləşdirəcək şəxs roluna yaxşı uyğunlaşa bilər- nə rusiyapərəst, nə də amerikapərəst Sorosçu. Yəni bunlar Soros uşaqları deyil- Sorosun qrantları hesabına yetişdirilən gənc siyasətçilər, Rusiya elitası da deyil, Avropanın köhnə elitalarına, ilk növbədə ingilislərə yönəlib.

İndi biz İngiltərənin Qərbi Asiyada və Türkiyədə, Fars körfəzi ölkələri ilə münasibətlərdə fəal rolunu görürük. Britaniya Aİdən çıxdıqdan sonra çox fəal şəkildə dünyada müstəqil oyunçu roluna qayıdır. Və Ermənistanda öz siyasi strukturunu yaratmağa iddia edə bilər. İngiltərə Birinci Dünya Müharibəsindən sonra Cənubi Qafqazda ən ciddi təsirə malik idi və niyə onu geri qaytarmağa cəhd etməsin ki? Armen Sarkisyan isə bunun üçün mükəmməl fiqurdur. Ona görə də onun oyununun Britaniya kəşfiyyatının belə mürəkkəb gedişi olması variantı, Britaniya siyasi dairələrinin kartlarını erməni oyununa soxmaq ehtimalı böyükdür. Bu ilk mümkün ssenaridir.

İkinci mümkün ssenari tamamilə fərqlidir. Armen Sarkisyan Britaniyayönlü siyasətçi olmaqla yanaşı, həm də yüksək səviyyəli fizik, astrofizik, elmi dairələrdə ciddi adı olan bir şəxsdir və çox güman ki, o, sadəcə olaraq dekorativ siyasi xadim rolunu oynamaqdan yorulub, və həqiqi elmə qayıtmaq istəyir ki, bu da olduqca mümkündür. Mən inanıram ki, hər iki ssenari hələ də mümkündür.

Yəni, ya da dediyim kimi, Sarkisyanın istefası yeni britaniyayönlü güc mərkəzinin formalaşması və Ermənistan daxilində siyasi uyğunlaşma, yaxud onun elmi sahəyə getməsi ilə bağlıdır.

Gələcək prezidentliyə dair proqnozlardan danışsaq, o zaman hazırkı prezidenti parlament seçəcəyindən Nikol Paşinyan fraksiyasının tam üstünlük təşkil edəcəyi gözlənilir. O, öz adamını qoyacaq.

Düşünürəm ki, Ermənistanın yeni prezidenti Paşinyanın maraqlarını təmsil edən şəxs olacaq və nə Koçaryanın, nə də Sarkisyanın heç bir şansı yoxdur.

Onların heç biri prezidentliyə qayıtmayacaq, bu heç bir şübhə doğurmur. Öz növbəsində Paşinyan baş nazir kimi prezidentlik və parlament üzərində tam nəzarəti əldə edəcək. Bir əldə cəmləşmiş vahid siyasi güc ancaq onunla olacaq. Və sonra düşünmək mümkün olacaq ki, bu, onun Vladimir Putinlə Qazaxıstan böhranı çərçivəsində əldə etdiyi razılaşmaların nəticəsidir, Cənubi Qafqazın müxtəlif strukturlarının nümayəndələri ilə Moskvada apardığı uğurlu danışıqların nəticəsidir, yoxsa yox. Bu ona, Azərbaycan və Türkiyə ilə diplomatiyasının uğrundan, Ermənistan prezidentin mövqeyindən asılı olmayaraq Qarabağın nizamlanması məsələsini həll etmək imkanı verəcək.

İstənilən halda Paşinyan bütün məsələləri həll etmək üçün kart-blanş alacaq. Burada başqa seçim olmayacaq. O, daha çox kimi dinləyəcək- Sorosun simasında amerikalıları, yoxsa Moskvanı, bunu zaman göstərəcək. Onun kifayət qədər mürəkkəb siyasəti olacaq. Aydındır ki, o, yaxın gələcəkdə KTMT və Aİİ-nin orbitini tərk etməyəcək, buna baxmayaraq, onun müxtəlif cəbhələrdə siyasi oyununun davamı və hərəkətlərinin çoxvektorluluğu qalacaq.

***Tərcümə - Elçin Bayramlı***

## “”Human Right” kimi təşkilatlar erməni lobbisi tərəfindən idarə olunurlar”

“Human Right” və onun kimi təşkilatlar sözdə insan hüququndan, azadlıqdan danışan, əslində isə dünyanın imperialist təfəkküründən xilas ola bilməyən güc mərkəzlərinin maraqlarını güdən qurumlardır. Özlərini sözdə qeyri-hökumət qurumu kimi təqdim edən belə təşkilatların, faktiki olaraq güc mərkəzləri tərəfindən, o cümlədən də erməni lobbiləri tərəfindən idarə olunduqları göz önündədir”. Bunu ”Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib.




Onun sözlərinə görə, hansı ölkə həmin güc mərkəzlərinin maraqlarına uyğun siyasət yürütmürsə, dərhal bu və bu kimi qurumların əli ilə ictimai fikir formalaşdırmağa cəhd edirlər: ”On illərdi ki, belə ürəkbulandıran gedişlərin şahidləriyik. Nə qədər Azərbaycan iqtidarı həmin güc mərkəzlərini maraqlarını nəzərə almayıb milli və dövlət maraqlarına üstünlük verəcək, o qədər də belə qurumlar əleyhimizə hesabatlar, bəyanatlar səsləndirəcək. Biz kifayət qədər yetkin xalq olaraq bütün bunları anlayır və hakimiyyətin belə hücumlara qarşı mübarizəsini birmənalı dəstəkləyirik. Erməni lobbisinin təsiri altında olan dünya güclərinin maraqlarına xidmət etmək, dolayısı ilə ermənilərin maraqlarına xidmət etmək deməkdir ki, bu da xalqımıza ancaq bəlalar gətirə bilər. Onların da istədikləri elə budur. Belə də dəmir yumruq birliyimizi qoruyub saxlamalı və həmin qüvvələrin ölkədə arzuladıqları vətəndaş qarşıdurmasından qorunmalıyıq. Əks-təqdirdə düşmən istəklərini reallaşdırmış olar”.

***Gülyana***

## “Nikol Paşinyan KTMT-nin nüfuzdan salınmasına çalışır”

“Ermənistanın baş naziri Nikol Paşinyan davamlı olaraq Ermənistan-Azərbaycan dövlət sərhədində təxribatlar törətdikcə KTMT qüvvələrinin bölgəyə gətiriləcəyi ilə bağlı fikirlər bildirir və buna işarələr edir Ermənistan-Azərbaycan sərhədi ilə bağlı yaranan problemlərə KTMT-nin gətirilməsi tamamilə yolverilməzdir və bu, ümumiyyətlə, siyasi gündəlikdə yoxdur”. Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.



Onun sözlərinə görə, Azərbaycan bütün yaranan problemləri rəsmi Moskva ilə müzakirə edir və bu istiqamətdə münasibətlər qurulur: ”Təbii ki, KTMT-də əsas söz sahibi, hərbi-siyasi blokun təsisçisi Rusiya çıxış edir. Qazaxıstanda baş verən hadisələrə nəzər salanda gördük ki, əsasən bütün proseslər Rusiyadan KTMT fonunda icra olunurdu. Ermənistan həm Tovuz təxribatlarında, həm 44 günlük Vətən müharibəsinin gedişində eyni zamanda, ötən ilin 16 noyabr hərbi təxribatlarında KTMT-nin bölgəyə gətirilməsi ilə bağlı çağırışlar edirdi. KTMT-nin Nizamnaməsinin 4-cü maddəsinə istinad edərək bəzi manipulyasiyalar həyata keçirilməyə cəhdlər göstərilirdi. Lakin bütün bunlar öz nəticəsini vermədi. Çünki kifayət qədər sıx münasibətləri olan və strateji müttəvidə dəyərləndirilən Rusiya - Azərbaycan münasibətləri heç vaxtı buna imkan verməz”.

Politoloq onu da bildirdi ki, Rusiya Ermənistanla Azərbaycan arasında beynəlxalq səviyyədə tanınmış sərhədlərin tanınmasının tərəfdarı kimi çıxış edir: ”Rəsmi Moskva beynəlxalq birlik tərəfindən tanınan sərhədlərin qarşılıqlı surətdə tanınmasının tərəfdarı kimi rəsmi Bakının çıxış etməsini, KTMT-nin bölgəyə gətirilməsinə heç bir yer qoymur. Sadəcə olaraq, Nikol Paşinyan KTMT-nin nüfuzdan salınmasına çalışır və bu istiqamətdə irəliləyir. Bu gün KTMT-yə sədrlik Ermənistan tərəfindədir və KTMT-nin sədrlik funksiyalarını Ermənistanın baş naziri Nikol Paşinyan yerinə yetirir. Paşinyan KTMT-yə sədrliyi dönəmindən istifadə edərək özü üçün və ölkəsi üçün müəyyən siyasi və hərbi divident qazanmağa yönəlmiş addımlar atır. Lakin onun öz istəyinə çatmayacağını artıq indidən qeyd etmək olar. Çünki dəfələrlə bu istiqamətdə addımlar atan Ermənistan öz istəyinə nail olmamışdır və bundan sonra da inanmıram ki, hər hansısa istəyinə nail ola bilsin. Digər tərəfdən KTMT-nin bölgəyə gəlməsi üçün heç bir hüquqi zəmində yoxdur, yalnız informasiya gündəmini zəbt etmək və manipulyasiyalar həyata keçirmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan dəfələrlə bu mövzuya diqqət çəkir. Lakin KTMT-nin bölgəyə gəlməsinin siyasi, hüquqi və hərbi cəhətdən heç bir əsası yoxdur”.

***G. Ağakərimova***

# Aqrar turizm:
# potensial və perspektivlər

**Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün inkişaf etdirilməsi vacib olan perspektiv sahələrdən biri də turizmdir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

Xəbər verdiyimiz kimi, yanvarın 27-də Avropa İttifaqının maliyyələşdirdiyi, Avrasiya Tərəfdaşlıq Fondu və "Konstitusiya" Araşdırmalar Fondunun icra etdiyi "AgriVision" layihəsi çərçivəsində Aqrar-turizm İnvestisiya Forumu keçiriləcək. Foruma Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu, Aqrar Kredit və İnkişaf Agentliyi kimi dövlət orqanlarının, kənd yerlərinin inkişafı, kənd təsərrüfatı və turizm sahələrində çalışan beynəlxalq donor təşkilatlarının (UNDP, FAO və USAID) nümayəndələri iştirak edəcəklər. Eyni zamanda, kiçik və orta fermer təsərrüfatlarının, müəssisələrlə işləyən maliyyə institutlarının, həmçinin kənd turizm imkanlarının maliyyələşdirməkdə maraqlı olan dövlət və özəl şirkətlərin, fərdi sahibkarların tədbirdə iştirakı nəzərdə tutulub.

## Turizmin inkişafı üçün hansı işlər görülüb?

Azərbaycanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün klaster yanaşma məqbul sayılır. Klaster yanaşma zamanı Azərbaycanda perspektivi aydın görünən bir neçə sahənin inkişaf etdirilməsi əsas götürülür. Ölkəmizdə yüksək potensial və perspektivləri olan sahələrdən biri də aqrar sektor və bir növ ona bağlı olan turizm sektorudur.

Azərbaycan təbii şəraiti, olduqca zəngin və rəngarəng rekreasiya ehtiyatları, xarici və daxili turizmin və əhalinin istirahətinin təşkili üçün hər cür şəraitə malikdir. Respublikamızın əlverişli iqlim şəraiti, ilboyu zirvələri qar və buzlaqlarla örtülü olan ecazkar quruluşu, cəlbedici landşaftı, çoxsaylı dağ çayları və şirinsulu gölləri, insanı heyrətə gətirən şəlalələr, yüzlərlə mineral və müalicəvi bulaqlar, narın qumlu dəniz çimərlikləri, palçıq vulkanları, tarixi-mədəni abidələr və s. ölkədə daxili və xarici turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır.

Nəqliyyat xidmətlərinin, yolların və s. inkişafı sahibkarlıq, turizm və s. sahələrin dirçəlişinə təkan verir. O cümlədən, bu gün Azərbaycanın ən ucqar kəndlərinədək rahat yolların çəkilməsi, ölkəmizin Şərq-Qərb, Şimal-Cənub kimi iri beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi turizm sektorunun da inkişafına ciddi təsir göstərməkdədir.

Belə ki, həm ölkə daxilində, həm də beynəlxalq səviyyəli yolların yenidən qurulması, yeni yolların çəkilişi ölkənin Avropa və Asiya arasında yerləşən nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da yüksəldir. Azərbaycanın tranzit potensialı artdıqca isə ölkə ərazisindən tranzit kimi istifadə edən xarici daşıyıcıların sayı da çoxalır. Bu da turizmin inkişafında mühüm rol oynayır.

Bütün bunlarla yanaşı, son illər, regionlarda (Gəncə, Zaqatala, Lənkəran və s.) beynəlxalq standartlara cavab verən hava limanlarının tikintisi, Lerik-Lənkəran, Şəmkir-Qazax, Xınalıq-İspik yollarının yenidən qurulması, Tovuz, Gədəbəy, Yardımlı, Daşkəsən, Quba və s. rayonlarda yeni yol çəkilişləri regional inkişafa verilən ən gözəl töhfədir.

## Daxili turistlərin yerli turizmə cəlbi



Məlumdur ki, turizmin inkişafında daxili turistlər də xüsusi rol oynayır. Xüsusən, ölkəmizdə kənd turizminin inkişafı əsasən daxili turistlərdən asılıdır. Belə ki, turizmin ekoloji turizm, dağ turizmi, idman turizmi və s. müxtəlif növləri içərisində kənd turizmi daha geniş yayılıb. Eyni zamanda, Azərbaycanda da kənd turizminin inkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar mövcuddur.

Hər bir ölkədə, xüsusilə də əhalisinin təqribən yarısı kənd yerlərində yaşayan Azərbaycan kimi ölkələrdə kənd turizminin inkişafı çox vacibdir. Çünki kənd turizmi şəhər mühitinin kənd mühiti ilə əvəz olunması ilə yanaşı, kənd yerlərində kiçik sahibkarlığın inkişafının, kənd təsərrüfatı məhsullarının istehlakçılara birbaşa çatdırılmasının təmin edilməsində, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında xüsusi əhəmiyyətə malikdir.

Araşdırmalardan aydın olur ki, kənd turizmi ümumilikdə, milli park və təbiət ərazilərindən istifadəyə, insanların istirahət tələbatında ətraf mühitlə bağlılığa, mədəni və milli irs nümunələrindən, eləcə də tarixi memarlıq abidələrindən istifadəyə, yüksək keyfiyyətli yaylaq havasına və müalicəvi bulaq sularına daimi tələbatın olmasına əsaslanır .

Aydındır ki, kənd turizm mərkəzləri əsasən dağlıq rayonlarda- Quba, Qusar, Xaçmaz, Masallı, Şamaxı, Qəbələ, Şəki və s. rayonların ərazisində yerləşir. Lakin Tovuz, Şərur, Gədəbəy, Ordubad, Daşkəsən, Zaqatala, Lerik, Yardımlı, Qax, Lənkəran, Balakən, Neftçala və s. rayonlarda da böyük potensial var.

## Dövlət turizmin təbliği üçün nə edir?

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədi ilə 2006-cı ildə Turizm İnstitutu yaradılıb, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılıb, eyni zamanda, Ümumdünya Turizm Təşkilatının dəstəyi ilə müxtəlif təlim proqramları həyata keçirilməkdədir.

2002-ci ildən başlayaraq, hər il Azərbaycanda beynəlxalq turizm sərgisi təşkil olunur. Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədi ilə tematik nəşr məhsulları (kitab, buklet, CD və DVD-lər və s.) hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklam çarxı nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından və digər elektron daşıyıcı vasitələrindən də geniş istifadə edilir.



Görülən kompleks işlərin nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Son illərdə Azərbaycana gələn turistlərin xeyli artması bu sahənin klaster yanaşmada ən vacib sahələrdən olduğunu göstərir. Düzdür, qlobal vəziyyətlə, pandemiya ilə əlaqədər son 2 ildə bu sahədə ciddi problemlər yaranıb və bütün ölkələrdə xarici turistlərin dövriyyəsi minimuma düşüb. Lakin bu hallarda belə daxili turizmin inkişafı üçün heç bir əngəl yoxdur.

## Turizm statistikanın dili ilə

Hazırda turizm planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əməkqabiliyyətli əhalinin 8 faizi turizm industriyasında və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur.

2021-ci ildə Azərbaycana 167 ölkədən 791,8 min turist gəlib. Ötən il turistlərin sayı əvvəlki il ilə müqayisədə cüzi (0.5 %) azalıb. Bu da dünyadakı pandemiya şəraiti ilə bağlıdır. Azərbaycana ən çox turist ötən ilin dekabr ayında gəlib- ümumi turist sayının 12.3 faizi. Ən az turist sayı isə yanvar və fevral aylarında müşahidə edilib- 5 faizdən az.

Azərbaycana gələnlər arasında Rusiya yenə də öndədir- 33 faiz. Türkiyədən gələnlər 25%, İranlı turistlər isə 16 faiz təşkil edib. Gürcüstandan gələn turistlər 8% təşkil edib.

2020-ci illə müqayisədə 2021-ci ildə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 54 faiz, körfəz ölkələrindən gələnlərin sayı 43,7 faiz MDB ölkələrindən gələnlərin sayı 9 faiz artıb. Səudiyyə Ərəbistanlı turistlərin sayında da 26 faiz azalma qeydə alınıb. Əksinə, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayı 2,2 dəfə artıb.

Həmişəki kimi xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı ölkəmizə gələnlərin sayından çox olub. Belə ki, ötən il 974,5 min nəfər Azərbaycan vətəndaşı xaricə səfər edib. Bu o deməkdir ki, xaricə gedənlərin sayı ölkəyə gələn turistlərin sayından 182 min nəfər çox olub.

Bu fakt göstərir ki, daxili turistlərin ölkənin özündə turizmə cəlb edilməsi üçün mövcud potensialdan hələ də tam istifadə oluna bilmir. Əgər kənd turizmi inkişaf etdirilsə, xarici ölkələrə üz tutan turistlərin çoxu öz ölkəmizdə turizmdən istifadə edər.

## Zərərsiz, rahat, daimi gəlir mənbəyi

Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Lakin bu sektorda mövcud potensiualdan səmərəli istifadə olunsa, ölkəmiz bu sahədən daha artıq gəlirlər əldə edər. Ona görə də, turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi inkişaf etdirilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır.

Digər sektorlardan fərqli olaraq turizm ekologiyaya zərər vurmayan, xammal və ya industrial texnologiya tələb etməyən, faydalı qazıntıların istifadəsinə ehtiyac duymayan bir sektordur. Təsadüfi deyil ki, bir çox ölkələrin əsas gəlirləri məhz bu sektordan əldə olunur.

Əgər kənd turizminin inkişafına daha çox diqqət göstərilsə, qısa müddətdə bu sahədə böyük irəliləyiş əldə olunar. Nəticədə həm əhalinin, həm də dövlət büdcəsinin gəlirləri artar, ölkədən valyuta çıxışı azalar, ölkəyə valyuta axını çoxalar, bu, həm də məşğulluq probleminin həllinə böyük töhfə olar. Üstəlik, bu sahənin inkişafı dolayı yolla digər sahələrin də inkişafına təkan verər, iqtisadi dövriyyəni artırar.

***Elçin Bayramlı***

SƏS
26 yanvar
2022-ci il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Mbappe qərarını nə vaxt açıqlayacaq?



**PSJ-nin hücumçusu Kilian Mbappe klubuna və "Real"a gələcəyi ilə bağlı hansı qərarı verdiyini söyləməyib. Qol.az "Get French Football News"a istinadən xəbər verir ki, fransalı futbolçu Çempionlar Liqasının 1/8 finalında bu klublar arasında keçiriləcək oyunun nəticəsini gözləyəcək və yalnız bundan sonra hansı klubla müqavilə bağlayacağı barədə məlumat verəcək.**

Mbappenin PSJ ilə hazırkı müqaviləsi yayda başa çatır. Onun artıq yeni klubu ilə ilkin müqavilə bağlamaq hüququ var. Fransız futbolçunun artıq "Real"a pulsuz transferlə keçməyə razı olduğu, lakin sonra onun PSJ ilə qısamüddətli müqavilə bağlaya biləcəyi barədə xəbərlər yayılıb.

Qeyd edək ki, bu komandalar arasında ilk oyun fevralın 15-i, cavab görüşü isə martın 10-u keçiriləcək.

# Xəbər aparıcısının canlı yayımda düyməlori açıldı



Amerikanın ictimai və siyasi televiziya şousu olan "60 Minutes" verilişinin aparıcısı Tara Braun efirdə xoşagəlməz hadisə ilə üzləşib.

SİA xarici mətbuata istinadən xəbər verir ki, 53 yaşlı amerikalı xəbər aparıcısı 11 sentyabr hadisəsindən sağ çıxan şəxsdən müsahibə alarkən köynəyinin düymələri açılıb. Tara bir müddət nə baş verdiyini anlamayıb. Qonaqla söhbətinə davam edərkən refleks olaraq əllərini yuxarı qaldıran aparıcının yaxa düymələri daha geniş açılıb.

Qeyd edək ki, xanım aparıcı efir zamanı etdiyi diqqətsizliyə görə rəhbərlik tərəfindən töhmət alıb.

*Rüqəyya Orucova*

# Stressin və depressiyanın möcüzəvi qənimi...

**Massaçusets-Louell universitetinin alimləri aydınlaşdırıblar ki, müntəzəm olaraq omeqa-3 doymamış yağ turşularından istifadə stress səviyyəsini xeyli azaltmağa imkan verir. Moderator.az xarici mətbuata istinadən xəbər verir ki, bu barədə universitetin saytında dərc olunmuş tədqiqatda deyilir.**




Mütəxəssislərin sözlərinə görə, omeqa-3 uzun müddət güclü sakitləşdirici effektə malikdir və ağır depressiyaların inkişafından qaçmağa imkan verir. Tədqiqatçılar inandırırlar ki, doymamış yağ turşuları uşaqlarda da təcavüzkarlığı azaltmağa kömək edir.

Bundan başqa, tədqiqatlar zamanı omeqa-3 turşusunun başqa mühüm xüsusiyyəti də aşkar olunub. Məlum olub ki, bu turşu beyin fəaliyyətini yaxşılaşdırmağa imkan verir və illər boyu itirilmiş diqqəti və yaddaşı bərpa etməyə kömək edir. Qeyd edilir ki, omeqa-3-ün ən yaxşı mənbələrindən biri də dəniz məhsulları və günəbaxan tumlarıdır.

Xatırladaq ki, İllinois ştatı Universitetinin alimləri iyulda müəyyən ediblər ki, omeqa-3 yağ turşuları xərçəngin əmələ gəlməsinin, inkişafının və şaxələnməsinin qarşısını alır.

# XƏBƏRDARLIQ:
## Qar yağacaq, güclü külək əsəcək

Bakıda və Abşeron yarımadasında yanvarın 27-si gündüzdən 28-i səhərədək Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s-dək güclənəcəyi gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən SİA-ya verilən məlumata görə, 27-28-də arabir yağıntılı olacağı, 27-si axşam, 28-nə keçən gecə və səhər bəzi yerlərdə sulu qar yağacağı ehtimalı var. Havanın temperaturu 2-6° isti olacaq.

Azərbaycanın rayonlarında yanvarın 27-də qərb rayonlarından başlayaraq 28-i axşamadək ölkə ərazisində hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda intensiv olacağı ehtimalı var. Qərb küləyi arabir 15-20 m/s, 27-də gündüz ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

Havanın minimal temperaturu mərkəzi aran rayonlarında 0-5° şaxta, dağlarda 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 18°-dək şaxta olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600